Vidadi Muradov

# Azərbaycan xalça sənəti
## tarixi, məktəbləri, texnologiyası
(illüstrasiyalı nəşr)

Bakı - "ELM" - 2013

**Redaktor:** Asya Şirəliyeva
*L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin direktor müavini*

Tünzalə Babayeva
*Sənətşünas*

**Rəyçilər:** Zəhra Əliyeva
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının*
*"Dekorativ-tətbiqi sənət" kafedrasının "Xalça" bölməsində emalatxana müdiri*

Neva Ağəliyeva
*Xalçaçı-rəssam*

**Dizayn:** Faiq Əliyev

**Foto:** Tural Bahadurov
Qalib Durgun Günçe (Türkiyə)

**Koordinator:** Orxan Rzayev
Aydın Muradov

**Vidadi Muradov.**
**Azərbaycan xalça sənəti: tarixi, məktəbləri, texnologiyası (illüstrasiyalı nəşr).**
**- Bakı: ELM, 2013. - 132 s.**

Kitabda Azərbaycan xalçaçılığının öyrənilməsi tarixində ilk dəfə olaraq milli xalça sənətinin tarixi, məktəbləri (qrupları) və texnologiyası zəngin illüstrasiyalarla kompleks şəkildə nəzərdən keçirilir.
Kitabdan Azərbaycan xalçaları üzrə mütəxəssislər, xalça toxucuları, xalça toxuçuluğunun sirlərini öyrənmək istəyənlər və xalçaçılığa maraq göstərənlər istifadə edə bilər.

ISBN 978-9952-453-19-5

655(07)-2013

© Vidadi Muradov

# Mündəricat


**Müəllifdən...** 4
**Xalçaçılıq Tədris Mərkəzi haqqında** 5
**Azərbaycanda xalçaçılığın tarixindən....** 11
**Xalçaların təsnifatı: Xovsuz və xovlu xalçalar....** 15
**Azərbaycan xalçalarının qrupları...** 27
*Bakı qrupu* 28
*Quba qrupu* 31
*Şirvan qrupu* 34
*Gəncə qrupu* 37
*Qazax-Borçalı qrupu* 40
*İrəvan qrupu* 42
*Qarabağ qrupu* 45
*Naxçıvan qrupu* 48
*Təbriz qrupu* 51
**Xalçaçılıq sənətində ilk addımlar....** 57
- *Dəzgah haqqında məlumat...* 59
- *Alətlər haqqında məlumat..* 60
- *İplər haqqında məlumat...* 64
- *İplərin hazırlanması və boyanması..* 69
- *Rənglər haqqında məlumat..* 70
- *Əriş çəkmə prosesi..* 73
- *Kücü* 75
- *İlmə salma...* 81
- *Alt və üst arğacların zonaya görə tarım və töka döyülməsi...* 83
- *Qırağ bükmə və dəhnə...* 84
- *Sıxlıq və yatım...* 87
**Xalçaçılığın texnologiyası...** 89
- *Haşiyə haqqında məlumat. Ana və bala haşiyə, siçan dişi və sular..* 90
- *Çeşnənin çəkilmə prosesi...* 92
- *Xalçada həndəsi və nəbatı elementlər..* 94
- *Hazır xalçanın "kəsilməsi" və sonrakı proseslər* 96
**Biblioqrafiya** 104
Əlavələr 109
**Azərbaycanın xalça qruplarına dair çeşnilər** 110
**Şəkillərin siyahısı** 128

## Müəllifdən

Azərbaycan xalçaçılığı dekorativ-tətbiqi sənətin ən mükəmməl sahələrindən biridir. Xalçaçılıq bir-biri ilə bağlı olan sahələrin- xammal əldə olunması, boyaqçılıq, toxuculuq, rəssamlıq bacarıqları və digər keyfiyyətlərin üzvi əlaqələndirilməsi nəticəsində ərsəyə gəlir. Qədim zamanlarda xalçaların yalnız əl ilə toxunması ilə əlaqədar olaraq xalça toxumanın nəsildən- nəslə ötürülməsinin stabil ənənəsi formalaşmışdı. Lakin çeşnilərin kağız üzərində hazırlanmsının genişlənməsi, sonralar isə fabrik yolu ilə xalça toxunmasının artması ənənəvi xalça istehsalına ciddi zərbə vurdu. Toxucu sənətkarların sayının və ustalığının azalması xalçaçılıq işinə də mənfi təsir göstərdi. Ona görə də müasir dövrdə xaçaçılıq sənəti sahəsində tarixən əldə olunmuş ən yaxşı nailiyyətlərin qorunub saxlanması və nəsildən- nəslə çatdırılmasının təmin edilməsi mühüm vəzifə kimi qarşıda dayanır. Əvvəllər bu sahədə müəyyən işlər görülmüş, dərsliklər, dərs vəsaitləri və s. hazırlanmışdır. Açıq demək lazımdır ki, bu vəsaitlərdə xalçaçılıq sənətinin texnoloji prosesləri daha çox sözlə təsvir edilmişdir ki, bu da onların tam anlaşılmasına maneçilik törətmişdir. Bununla əlaqədar olaraq, müasir dövrün tələblərini tam nəzərə alan vəsaitlər hazırlanması zərurəti meydana gəlmişdir. Təqdim olunan illüstasiyalı nəşr belə bir zərurətdən yaranmışdır. Bu nəşr demək olar ki, xalçaçılığın bütün məsələlərini, xalça sənətinin texnoloji proseslərini tamamilə əyaniləşdirmiş, yəni onların icrası zamanı fotoşəkli çəkilmiş, sonra sözlə ifadəsi verilmişdir. Bu nəşrlə tanış olan hər kəs Azərbaycan xalça sənətinin sirlərinə qısa müddətdə bələd olmaq imkanı əldə etməklə bərabər, xalça toxumağı da öyrənə biləcəkdir.

Xalça toxumanın təcrübi olaraq öyrənilməsini arzu edənlər üçün də şərait yaradılması təmin edilmişdir. Bu məqsədlə "Azər- İlmə" toxuculuq şirkəti tərəfindən "Xalçaçılıq Tədris Mərkəzi" yaradılmışdır. Burada gənclər peşəkar ustaların rəhbərliyi altında xalça toxumanın sirlərini öyrənə bilərlər.

Beləliklə, təqdim olunan illüstrasiyalı nəşr Azərbaycan xalçaçılığı sahəsində ilk təşəbbüs olub, onun gələcəkdə də uğurla inkişafının təmin edilməsinə böyük kömək göstərəcəkdir.

Vidadi Muradov
*professor*

# Xalçaçılıq Tədris Mərkəzi haqqında




Azərbaycanda xalçaçılığın ən mühüm problemlərindən biri xalçaçılıq sənətinin nəsildən-nəsilə ötürülməsinin təmin edilməsi ilə bağlı olmuşdur. Qədim zamanlarda xalçaçılığın sirləri nəsildən-nəslə ustalar tərəfindən, şagird hazırlığı vasitəsi ilə həyata keçirilirdi. Azərbaycanda Sovet hakimiyyəti dövründə xalçaçılığın tədrisi dövlət tərəfindən tənzimlənməyə başlayır. Azərbaycan xalçaçılığının tədrisi problemlərindən bəhs edən müəllifin yazdığı kimi, sovet Azərbaycanında 1921-ci ildən başlayaraq fabrik-zavod təhsili ocaqları təşkil olunmuş, 1923-cü ildə "Ali Dövlət Gözəl Sənətlər məktəbi" açılmışdır... Bundan sonra təşkil olunmuş "Bədaye texnikum"un tədris proqramına tikmə və toxuma işləri, xalçaçılıq texnologiyası, qrafika, rəsm və sairə daxil edilməklə texniki kadrlar hazırlanması istiqamətində ilkin addımlar atılmışdır. 1925-ci ildən işə başlayan "Ali Bədaye Məktəbi"nin tətbiqi sənətlər şöbəsi öz tədris proqramında xalça sənətinə geniş yer vermiş və bu sahədə kadrlar hazırlanması işini daha yüksək səviyyəyə qaldırmışdır. 1926-cı ildə xalça artelləri Azərbaycan Sənaye Şurası sistemində birləşdirilmiş, Azərbaycan Xalçaçılar İttifaqı yaradılmışdı. 1934-1936-cı illərdə Bakı və Qubada ikiillik, 1938-1939-cu illərdə isə altıaylıq kurslar, 1956-cı ildə isə Bakıda ikiillik xalçaçılıq məktəbi təşkil edilmişdi. Xalçaçılıq sahəsində mühüm yeniliklərdən biri texniki- peşə təhsili məktəblərində xalçaçılıq şöbələrinin açılması oldu. 1979-80-ci tədris ilindən isə Azərbaycan Dövlət İncəsənət institutunda xalçaçılıq üzrə də ali təhsilli kadrlar hazırlığına başlanır (*Müciri C. Azərbaycan xalçaçılığının texnoloji üsulları. Bakı, 1987, s.4*).






*Şəkil 1. Xalçaçılıq Tədris Mərkəzi*







Şəkil 2-3. *Xalçaçılıq Tədris Mərkəzi: ümumi görünüş*



Şəkil 5. Gənc xalçaçılar



Şəkil 4. Tədris prosesi

1991-ci ildə Azərbaycanın müstəqillik əldə etməsindən sonra ənənəvi sənət sahələrində, o cümlədən xalçaçılıq sahəsində tədrisin təşkili işində yeniliklər edilir. Azərbaycan Rəssamlıq Akademiyasında xalçaçılıq sahəsində yüksək ixtisaslı kadr hazırlığı təşkil edilir. Bütün bu yeniliklərə baxmayaraq, xalçaçılıq sahəsində kadr hazırlığı sahəsində yeni addımlar atılması zərurəti ortaya çıxmışdır. Bunu nəzərə alan "Azər-İlmə" Xalçaçılıq şirkəti nəinki, Azərbaycanda, bütövlükdə xalçaçılıq sənəti tarixində ilk dəfə olaraq ən müasir standartlara cavab verən "Xalçaçılıq Tədris Mərkəzi" yaratmışdır.

Mərkəzdə gənc xalçaçılar hazırlığı üçün bütün şərait təmin edilmişdir. Mərkəzə həm xalçaçılıq sahəsində, həm də bu sahədə pedaqoji təcrübəyə malik olan mütəxəssislər cəlb edilmişdir. Şagirdlər üçün xüsusi xanalar hazırlanmış, əyani vasitələr təşkil edilmişdir. Bir sözlə "Xalça Tədris Mərkəzi" xalçaçılıq sahəsində yeni tipli tədris mərkəzi olmaqla qarşısına qoyulan bütün tələbləri yüksək səviyyədə yerinə yetirəcək, Azərbaycan üçün xalçaçıların yeni nəslini yetişdirəcəkdir.

# Azərbaycanda xalçaçılığın tarixindən

Azərbaycan xalqının mənəvi dünyasını, gözəllik duyumunu, fitri istedadını, dünyaya fəlsəfi baxışlarını sirli naxışlarda yaşadan Azərbaycan xalca sənətinin qədim tarixi vardır.

Elmi mənbələrə əsasən tarixi e.ə. II minilliyə aid edilən xalca sənətinin Azərbaycan ərazisində geniş yayılmasına və inkişaf etməsinə səbəb bu ərazidə olan əlverişli coğrafi-iqlim şəraiti və müvafiq təsərrüfat fəaliyyəti olmuşdur.

Yarandığı ilkin dövrlərdə tələbatı ödəyən, yəni köçmə həyat tərzi keçirən insanların çadırlarında örtük, döşənək, pərdə və s. kimi istifadə edilən xalça getdikcə yüksək bədii əhəmiyyət kəsb etmiş, insanların estetik ehtiyacına cavab vermiş, onların həyatının ayrılmaz hissəsi, istehsal fəaliyyətlərinin aparıcı növü olmuşdur.

Azərbaycanda xalçaçılığın keçdiyi inkişaf yolu dörd əsas və ardıcıl dövrə bölünür.

Birinci dövr xalça sənətinin ibtidai dövrüdür. Qarabağda toxunan palaz və cecimlər bu dövrə aid edilir. Bu dövrdə toxunan xalça məmulatı bəzəksiz, saya yerli və bir rəngli olurdu. Sonralar toxucular heyvan yunlarının təbii rənglərindən istifadə edərək zolaqlı palazları yaratmışlar.

Xalça sənətinin ibtidai dövrünü təşkil edən və keçirtmə üsulu ilə toxunan palaz zolaqlarının üç bədii inkişaf forması vardır:

a) sadə zolaqlar; b) sulu zolaqlar; c) naxışlı zolaqlar.

Bu bədii inkişaf formaları cecimlərə də aiddir.

Ümumiyyətlə, "palaz" köçmə həyat tərzi keçirən bir qism əhali arasında üstün idi. Adətən palazlar dik hanalarda, cecimlər isə yer hanalarında toxunurdu.

İkinci dövr xalça sənətinin texniki və başlıca olaraq, bədii cəhətdən inkişafının ilk dövrüdür. Bu dövrdə sadə dolama texnikası ilə əmələ gələn "kilim" toxuma üsulu inkişaf edir. Bu texnikanın meydana gəlməsi xalçaların üzərində ibtidai formalarda sadə naxışlar toxumağa imkan yaratmışdır. Palaz və kilimlərdən alaçıqlarda, dəyələrdə və eləcə də toyxanalarda, istər daxili bəzək-döşəmə, istərsə də xarici örtük kimi istifadə olunurdu.

Üçüncü dövr vərni, şəddə, zili, sumax, ladı toxuma üsulu meydana gəlməsi dövrüdür. Mürəkkəb dolama texnikasının çox geniş yayıldığı bu dövrdə xalça bəzə-

yinin mürəkkəbləşmə və müxtəlif ölçülü naxış elementlərinin inkişafı üçün geniş imkanlar yaranmışdır.

Xalça sənətinin üçüncü dövrünü təşkil edən və mürəkəb dolama üsulu ilə əmələ gələn şəddə və vərni xalçaları əksər hallarda maldarlıqla məşğul olan yerlərdə toxunurdu. Buna görə də bu tipli xalçaların üzərində başlıca olaraq stilləşmiş heyvan təsvirlərinə daha çox təsadüf edilir. Şəddə və vərninin istehsalının mənşəyi Bərdə və Naxçıvan olduğu güman edilir. Mürəkkəb dolama toxuma üsulu ilə toxunan zili istər toxunuşuna görə, istərsə də bədii cəhətdən şəddə və vərniyə nisbətən daha artıq təkmilləşmişdir.

Xovsuz xalçaların və xalça məmulatlarının özünə məxsus ornamentləri olur. Bu ornamentlərdə palaz zolaqları, kilimlərə xas olan klassik elementlər, şəddə və vərni elementləri, zili, ladı, sumax elementləri adı altında birləşərək bir-birindən fərqlənirlər.

Qədim zamanlardan bu günümüzədək istehsal edilən xovsuz xalçalar bütün dövrlərdə əhalinin məişətinin ayrılmaz hissəsi olmuşdur. Qədim xalça ustaları məfrəş, xurcun, heybə, çuval, çul, yüküzü və sair məişət əşyalarının yüngül və yumşaq olmasını nəzərə alaraq, onların əksəriyyətini xovsuz xalçaların toxuma texnikası ilə istehsal edirdilər. Bu adət indi də davam etməkdədir.

Xalça toxuma sənətinin dördüncü dövrü düyünləmə, yəni əvvəllər dolama ilmə, sonralar isə qüllabı ilmə texnikası ilə əmələ gələn xovlu xalça toxuma üsulunun inkişaf etdiyi dövrüdür. Bu dövr istər texniki, istərsə də bədii cəhətdən xalça sənətinin yüksək inkişaf dövrü hesab edilir. Hələ eramızdan əvvəl tətbiq olunan ilmə düyün texnikası, bütün başqa üsullardan fərqli olaraq, mürəkkəb kompozisiyaların tətbiq edilməsinə imkan yaratmışdır. Bu texnikanın inkişafı ilə əlaqədar yeni istehsal alətləri (dəmir qayçı, bıçaq) meydana gəlmişdir. İstər xovlu və istərsə də xovsuz xalçaların toxunma prosesində digər istehsal alətlərindən (həvə və kirkidən) istifadə etmişlər.

E.ə V əsrə aid antik dövr yunan tarixçilərindən Ksenofont, Herodot, VII əsr alban tarixçisi Moisey Kalankatuklu, Çin səyyahı Xuan Tes-Ank və sairlərindən başlayaraq orta əsr ərəb səyyahı Əl-Məsudi, Əl-Muqəddəsi, Əl-İstəhri və s. yazılı abidələrində Azərbaycan ərazisində istehsal edilən yüksək keyfiyyətli xalçalar, ölkədən ixrac edilən boyaq maddələri haqqında geniş məlumatlar vermişlər.

Azərbaycan xalçası tarixən ixrac məhsulu olmuşdur. Bu xalcalar XIV əsrdən başlayaraq Avropaya ayaq açıb. Onun ölkədən uzaqlarda tanınmasına sübut XIV-XVIII əsr intibah dövrünün İtaliya, Holland, Flamand rəssamlarından - Hans Memlinqin "Məryəm körpəsi ilə" (XV), Karlo Krivellonun "Müjdə" (XV), Hans Holbeynin "Elcilər" (XVI) və s. tablolarında Qarabağ, Gəncə, Qazax xalçalarının tərənnüm edilməsidir.

Bu gun dunyanın bir çox muzeylərini, şəxsi qalereyalarını bəzəyən Azərbaycan xalçaları ümumbəşəri sərvətə cevrilmişdir.

# Xalçaların təsnifatı:
# Xovsuz və xovlu xalçalar

# Xovsuz xalçalar

## Palaz



Şəkil 6. **Palaz. Qazax-Borçalı qrupu**



Şəkil 6a. **Palaz. Fraqment. Qazax-Borçalı qrupu**

Xovsuz xalçaların ən sadə növlərindən biri palazdır. Palaz ərqacı ərişə sadə keçirtmə yolu ilə toxunur. Müxtəlif endə və müxtəlif rəngli təkrarlanan zolaqlardan ibarət olur. Palaz dəvə, qoyun yunundan və pambıqdan toxunur.

Şəkil 7a. **Palaz. Fraqment. Bakı qrupu**





Şəkil 7. **Palaz. Bakı qrupu**

Şəkil 8. **Kilim. Bakı qrupu**





Şəkil 8a. **Kilim. Fraqment. Bakı qrupu**



Şəkil 9a.
**Kilim. Fraqment. İrəvan qrupu**

Kilimlər sadə keçirtmə, bəzi kilimlər isə sadə keçirtmə və sadə dolama üsulu ilə toxunur. Kilimlərdə əriş ipi boyanılır. Kilimlərdə dırnaq adlanan şaquli deliklərə rast gəlirik. Kilimlərin hazırlanma prosesi palazdan mürəkkəbdir. Kilimlərdə naxışlar romb, üçbucaq və trapesiya şəklini alır və bütün ornamentlər həndəsi xətlərdən ibarət olur. Şirvan qrupuna daxil olan gəzməli kilim adlandırılan mürəkkəb texnika ilə toxunan konturlu kilimlərə rast gəlinir. Bu gəzmələr kilimin dekorativ quruluşunu zənginləşdirir. Kilimlər yundan, pambıqdan və bəzi hallarda isə ipəkdən toxunur.



Şəkil 9. **Kilim. İrəvan qrupu**

## Sumax



*Şəkil 10. Sumax. Quba qrupu*



*Şəkil 10a. Sumax. Fraqment. Quba qrupu*



*Şəkil 11a. Sumax. Fraqment. Quba qrupu*



*Şəkil 11. Sumax. Quba qrupu*

Mürəkkəb dolama üsulu ilə toxunur. Sumağın kompozisiyası və ayrı-ayrı elementləri Quba-Şirvan növlü xalçaların ornamentlərinə çox oxşayır. Sumaxlar yundan və çox nadir hallarda ipəkdən toxunur.

Zili

## Zili



*Şəkil 13a.*
***Zili. Fraqment. Qazax-Borçalı qrupu***



*Şəkil 12a.*
***Zili. Fraqment. Bakı qrupu***



*Şəkil 12.* ***Zili. Bakı qrupu***

Zili Qazax-Borçalı, Qarabağ, Abşeron, Şirvan, Quba, Naxçıvan, İrəvan, Gəncə və Təbriz qruplarına toxunur. Zililər müxtəlif texniki üsullarla toxunur. Zili 2 cür toxunur: yerliyi palaz texnikası ilə olan sadə keçirtmə və naxışları mürəkkəb dolama üsulu ilə toxunan zili. Zililər yundan, pambıqdan və ipəkdən toxunur.



*Şəkil 13.* ***Zili. Qazax-Borçalı qrupu***

## Şəddə



Şəkil 14. Şəddə. Qarabağ grupu



Şəkil 14a.
Şəddə. Fraqment. Qarabağ qrupu



Şəkil 15a. Şəddə. Fraqment. Naxçıvan qrupu



Şəkil 15. Şəddə. Naxçıvan qrupu

Əsasən sadə və mürəkkəb olur. Sadə dolanan şəddələr palaz və cecim kimi toxunur. Şəddələrdə ərişlər rəngli olur. Mürəkkəb şəddələrdə naxışlar mürəkkəb dolama üsulu ilə toxunur. Şəddələr yun, ipək və pambıqdan toxunur.

## Vərni

Vərni Qarabağ, Naxçıvan, İrəvan və Qazax-Borçalı bölgələrində geniş yayılmışdır. Vərnilərin əriş və ərqacları rəngli və ya rəngsiz olur. Vərni mürəkkəb doluma texnikası ilə toxunur. Bəzi vərnilərin yerliyi sadə keçirtmə, naxışları isə mürrəkəb dolama üsulu ilə toxunur. Əksər hallarda vərnilərin əsas naxışları şahmat damaları qaydası ilə stilizə edilmiş iri əjdaha təsvirlərindən ibarət olur. Vərnilər ipək və yundan toxunur



*Şəkil 17a. Vərni. Fraqment. Qarabağ grupu*



*Şəkil 17. Vərni. Qarabağ qrupu*



*Şəkil 16. Vərni. Qarabağ qrupu*



*Şəkil 16a. Vərni. Fraqment. Qarabağ qrupu*

## Cecim



Şəkil 18a.
Cecim. Fraqment. Naxçıvan qrupu



Şəkil 19a. Cecim. Fraqment. Naxçıvan qrupu



Şəkil 18. Cecim. Naxçıvan qrupu



Şəkil 19. Cecim. Naxçıvan qrupu

Cecim xovsuz xalça məmulatıdır. Cecim əsasən yer xanalarında toxunulur. Toxunuşu rəngli arışlərdən və rəngli ərqaclardan ibarətdir. Cecimin üz ipini rəngli ərişlər təşkil edir. Cecim sadə keçirtmə üsulu ilə toxunur. Cecimlər adətən, yun və ipəkdən toxunur.

# Ladı



Şəkil 20a. **Ladı. Fraqment. Qarabağ qrupu**

Ladı xovsuz xalçalardan biridir. Bunların istehsalında yun və pambıqdan istifadə olunur. Ladı əsasən Qarabağda və Qazaxda istehsal edilir. Ladılar mürəkkəb dolama üsulu ilə toxunur.



Şəkil 20. **Ladı. Qarabağ qrupu**



Şəkil 21. **Ladı. Qarabağ qrupu**



Şəkil 21a.
**Ladı. Fraqment. Qarabağ qrupu**

# Xovlu xalçalar

Xovlu xalçalar əriş, ərqac və xovdan ibarətdir. İlmələr 2 cür vurulur: əl ilə vurulan ilmə, bir də qarmaqlı bıçaq ilə vurulan ilmə. Azərbaycanın bütün xalça qruplarının xovlu məmulatları gördəst üsulu ilə toxunur.



Şəkil 22. **Xalça. «Atlı-itli». Qarabağ qrupu**



Şəkil 23. **Xalça. «Ləmbəli». İrəvan qrupu**



Şəkil 24. ***Süjetli xalça. Təbriz qrupu***



Şəkil 25. ***Xalça. «Həyat ağacı». İrəvan qrupu***



Şəkil 26. ***Xalça. «Tirmə buta». Naxçıvan qrupu***




*Şəkil 27. Azərbaycan xalça məktəblərinə dair nümunələrdən ibarət kompazisiya. "Azər-İlmə" istehsalı. 2010*

# Azərbaycan xalçalarının qrupları

## Azərbaycan xalça qruplarının təsnifatına dair

Azərbaycan xalçaçılığı bitkin sənət nümunəsi olmaqla birgə, təbii-tarixi şəraitə uyğun olaraq regional xüsusiyyətlərə də malikdir. Bunları nəzərə alaraq Azərbaycan xalçaçılığında Bakı, Quba, Şirvan, Gəncə, Qazax-Borçalı, İrəvan, Qarabağ, Naxçıvan və Təbriz məktəblərini və ya qruplarını ayırmaq olar.



*Şəkil 28. **Bakı qrupu xalçalarından fraqmentlər***

### BAKI QRUPU

Azərbaycan xalçalarının Bakı qrupu coğrafi baxımdan Xəzər dənizinin qərb sahilini – Bakı-Abşeron bölgəsini əhatə edir. Ona görə də Azərbaycan xalçalarının bu qrupu şərti olaraq, Bakı-Abşeron qrupu da adlandırıla bilər.

Xalçaçılıq, əsasən, bol suyun və qoyunçuluğun geniş yayıldığı ərazilərdə inkişaf etmişdir. Şamaxıda, Qubada, Şəkidə olduğu kimi, Abşeronda da ən çox "qala" qoyun cinsi üstünlük təşkil etmişdir. Yumşaq, parlaq quzu yunundan toxunan xalçalar irili-xırdalı nəfis elementləri, bədii tərtibatından asılı olmayaraq, zərifliyi və incəliyi ilə seçilmişdir. Bu xalçaların güclü bədii təsir qüvvəsinə malik olması səbəblərindən biri də mükəmməl texniki göstəriciləri, xüsusilə yüksək ilmə sıxlığı nəticəsində yaranan naxışların dəqiq təsviri ilə bağlıdır. İlmə sıxlığı 36x60, 38x50-dən başlayaraq 38x55, 40x50, 42x45, 40x70 aralarında olan kiçik ölçülü "Novxanı", "Suraxanı" və "Fatmayı" xalçaları, eyni zamanda 240x130, 200x300 sm ölçülü nisbətən iri "Goradil", "Fatmayı", "Xilə-buta", "Xilə-Əfşan" kompozisiyalı xalçalar da istehsal edilmişdir.

Bakı xalçalarında üstünlük təşkil edən rəng harmoniyası əksər hallarda memarlıqda istifadə edilən "kaşı" bəzək üslubunun mavi, sürməyi rənglərinə və şəkəri, sumağı tonlarına uyğun seçilirdi.

Suraxanı Atəşgah məbədində yanar alovun üzərində ucalmış svastika nişanı, günəşin təsviri bu yerlərin qədim sakinlərinin hələ keçmiş zamanlardan oda, alova sitayiş etmələrini sübut edir. "Suraxanı" xalçası üzərində təsvir edil-

miş göl – tək, bölünməz enerji mənbəyi və ondan ətrafa paylanan şüalar insanların ilk inancları ilə bağlıdır.

Bakının Əmircan kəndində toxunan "Xilə-buta" xalçalarındakı klassik "buta", "Xilə-Əfşan" xalçasına məxsus "sacayaq" elementləri də atəşpərəstliklə bağlı olub, odu, müqəddəs ocağı, mifoloji quşlar – nur, işıq mənbəyinin simvolu olub, Tanrı ilə yer arasında əlaqə yaradan ilahi varlığı, müxtəlif üçbucaq formalı asmalar isə göz və nəzər qaytarılması üçün inamlarla əlaqəli yozulan elementlərdəndirlər. "Novxanı", "Fatmayı", "Bakı", "Suraxanı" xalçalarının bədii strukturlarının əsasını təşkil edən pilləli və ya altıbucaqlı, səkkizbucaqlı "göllər" kainat, fəza cisimləri ilə bağlıdır. Onlar da vahid enerji mənbəyini tərənnüm edirlər. Bu göllərin içərisini bəzəyən sxematik əyri və sınıq xətli işarələr arxaik inancların bədiiləşmiş dili ilə tərənnüm edilən müsbət enerjinin daşıyıcılarıdırlar.

Bir sıra xalça məktəblərində olduğu kimi Bakı xalçalarının da çoxu bir qayda olaraq toxunduğu ərazinin adını daşıyırlar. Bəzi hallarda isə toxunduğu məkanı bildirən yer adlarının yanında kompozisiyanın quruluşunu və ya əsas elementləri anladan ifadələrdən də istifadə edilir. "Xilə-Əfşan" xalçasında Xilə - Əmircan kəndinin adı olduğu halda, Əfşan – səpələnən, paylanan anlamında işlənir. Yaxud, "Xilə-buta" xalçasında ardıcıl olaraq düzülmüş elementi "buta" təşkil edir.

Bakı xalçaları üçün ("Xilə-Əfşan") nəbati elementlər də xarakterikdir. Palmet, tənək yarpaqları, islimi elementləri ənənəyə görə xalça üzərində bərabər yerləşdirilir. Bəzən "islimi" Avropada "arabesk" deyə adlandırılsa da bu naxışın mənası yeni, gənc pöhrə, cücərti deməkdir. Yəni sonsuza doğru davam edə biləcək cücərtiyə bənzətmədir. Digər çiçəklər və yarpaqlar isə cənnətə olan işarə, cənnətin rəmzi sayılır.

Bakı xalçalarının haşiyə zolaqlarını bəzəyən naxışları arasında ən geniş yayılmış "kufi"dir. "Kufi" haşiyə zolağı özünəməxsus quruluşa malikdir. Adətən, ana haşiyəni təşkil edən "kufi"nin tarixi İslamın təsviri sənətə olan təsiri ilə əlaqələndirilir. Düzbucaq formalı qəfəslər mavi və ya sumağı yerlikli yelən zolağı üzərində cərgə ilə ardıcıl toxunur. Bu qəfəslər də öz növbəsində mürəkkəb



*Şəkil 29. **Bakı qrupu xalçalarından fraqmentlər***



Şəkil 30. **Bakı qrupu xalçalarından fraqmentlər**

stilizə edilmiş naxışlarla bəzədilir. Ümumilikdə ərəb kalliqrafik yazı tərzini xatırladan bu zolaq zəncirə xarakteri daşıyır.

Bakı xalça məktəbində toxunan "Palaz", "Kilim", "Zili" xovsuz xalçalarını bəzəyən dolanbac, düz xətt, romb, qarmaqlı və başqa həndəsi formalı elementlər "kilimgülü", ağac, əfsanəvi quş və heyvan motivləri fərdi təsvir üslubları ilə seçilirlər. Bu naxışlar bütövlükdə əbədiyyətlə bağlı hisslər, duyğular dünyasının xalılar üzərində bədii inikasıdır.

Abşeron məişətində geniş yayılmış çul, xurcun, heybə, duz torbası, xaral, ləmi qabağı, məfrəş kimi xalça məmulatları da cecim və kilim xovsuz xalçalarının texnoloji üslubundadır. Tünd-sumağı, mavi, sürməyi, şəkəri, açıq-qəhvəyi rəng çalarları və incə toxunuş, zərif yun bu əşyaları digər bölgələrə məxsus nümunələrdən fərqləndirir.

Dolğun tarixi köklərə bağlı olan Abşeron xalça naxışları ilə bu məktəbə xas isti rəng ahəngi arasında olan vəhdət toxucuların qədimdən formalaşmış yüksək bədii estetik duyumuna sübutdur.

Bilgəh, Binə, Buzovna, Bülbülə, Qala, Qobu, Əmircan, Goradil, Maştağa, Mərdakan, Nardaran, Novxanı, Suraxanı, Hökməli, Şüvəlan, Fatmayı, Ağdərə (Xızı), Divəzər, Fındığan, Sitalçay, Tıxlı, Əmbizlər Bakı qrupunun əsas xalçaçılıq mərkəzləridir.

Şəkil 31. **Məfrəş üzü fraqmenti. Bakı qrupu**



## QUBA QRUPU

Quba qrupuna daxil olan klassik xalçalar yığcam kompozisiyaları ilə seçilir. Burada toxunan bəzi uzunsov yolluqlar ritmik şəkildə təkrarlanan səpmə elementlərlə bəzədilir. Quba xalçalarında olan naxış həlli müxtəlifdir. Bu ecazkar naxışlar xalçaların emosional təsir gücünü artırır. Xalçalardakı bəzək elementləri xalqımızın erkən dini-mifoloji və mistik təsəvvürlərini əks etdirirlər. Hər bir xalçanın öz bədii quruluşu olduğu kimi, hər bir naxışın da öz mənası və yozumu vardır. Bu, məkanın canlı təbiətini rənglərin və naxışların dili ilə özündə yaşadan xalçalarda şər qüvvələrdən qorunmaq, xeyir-bərəkət, müqəddəslik simvolu olaraq toxunan rəmzi işarələr, "buynuz", "miqraz" (qayçı), tənək yarpaqları, çiçəklər, "sacayağı", dəvə, iki başlı bir bədənli, başı taclı mifoloji quşlar, "əjdaha" kimi əfsanəvi obrazlar və s. incə ilmələrin dili ilə bəzən göllərin əhatəsində, bəzən isə rapportlar şəklində təkrarlanaraq ahəngdarlıq yaradırlar. Quba xalça məktəbinə Azərbaycanın qədim Dərbənd şəhərində azərbaycanlıların toxuduqları xalçalar da daxildir.

Quba xalçalarında toxunan naxışlar bir qayda olaraq həndəsi, eyni zamanda ornamental bədii üslubda icra edilirlər. İnanclar, ayinlər, miflər, ən qədim yazılar, Tanrı, sokral dünya, kainat haqqında fəlsəfi düşüncələr, ibadət, insanların yaşam tərzi – budur həndəsi naxışların simvolik anlamı. Bu gün Quba xalçalarında qan yaddaşından irəli gələrək toxunan qədim Orxon-Yenisey yazılarının izləri özünü göstərir. Qubanın "Qımıl", "Qonaqkənd", "Sırt-Çiçi" və s. xovlu xalçalarında, əsasən, haşiyə zolaqlarında tez-tez rast gəlinən çarpaz "X" formalı həndəsi elementlər qədim türk əlifbasında "Di" səsini ifadə edir. Tarix boyu təkmilləşərək günümüzədək gəlib çatmış bu naxışlar artıq xalqımızın özünüifadəsi simvoluna çevrilmişdir.

Üçbucaq, romb, svastika, dolanbac, səkkizbucaqlı ulduz kimi həndəsi naxışlar Quba xalçalarında ənənəvi olaraq nəsildən-nəslə keçərək damğalar şəklində geniş yayılmışdır.

Quba xalçalarını bəzəyən çoxsaylı naxışlar içərisində qadın, uşaq və kişi obrazlarına rast gəlmək mümkündür. Bu



Şəkil 32. *Quba qrupu xalçalarından fraqmentlər*



*Şəkil 33.* ***Quba qrupu xalçalarından fraqmentlər***

motivlər xalçada yalnız köməkçi element olaraq daraqla yun darayan və ya körpəsi ilə əl-ələ tutmuş qadın, yaxud ailə üzvlərinin tam birgə qrup kimi vahid süjet şəklində toxunurlar.

Quba qrupunda toxunan xovlu və xovsuz xalçalar üzərində çox vaxt abstrakt şəkildə zoomorf elementlərdən də istifadə edilir. Bu, əsasən "Əjdahalı" xovlu və "Sumax" xovsuz xalçalarında istifadə edilən abstrakt motivlərdir. "Əjdaha" elementi türk xalqları arasında çox geniş yayılmışdır. Bir çox xalça kompozisiyalarında ona rast gəlmək olar. Çox zaman çarpaz şəkildə kəsişən zolaqların arasında bəzən sivri formalı açıq şəkildə ara sahənin yerliyində naxışların arasında toxunur. Yerləşmə yerindən və formasından asılı olmayaraq bütün kombinasiyalarda "əjdaha" palmetlərin ətrafında qoruyucu tərzdə toxunur. Palmet həyatı təmsil edən çiçəkdir, deməki, əjdaha da bu həyatı mühafizə edən müqəddəs obrazdır.

Quba qrupuna aid olan xalçalarda çox maraqlı kalliqrafik yazıların həndəsiləşdirilmiş bəzəklərə keçməsi də müşahidə edilir. Bu növ xalça üzərindəki yazılara "Qədim minarə" kompozisiyası yaxşı nümunədir. Xalçanın bütün daxili səthini tutan uzunsov gölün haşiyə zolağı boyu ərəb kalliqrafiyası ilə "Allah" kəlməsi ardıcıl şəkildə toxunub. Eyni yazı tərzində olan naxışlara Quba qrupu xalçalarının bir çoxunun haşiyə zolağında istifadə edilmiş "kufi" elementlərini də daxil etmək olar.

Yumşaq, keyfiyyətli və parlaq yunu ilə xalçaya zəriflik effekti verən, onu daha yaraşıqlı edən isti rəng ahəngidir. Nar və qoz qabıqları, heyva, tut ağacının yarpaqları, palıd ağacının kökü və s. bitkilərdən alınan rənglər öz davamlılığı, şəffaflığı ilə xalçanı daha canlı göstərirlər.

Sıxlığı 30x60, 35x55, 38x50, 40x45, 40x60, 35x70 olub, ənənəvi xalq üsulu əsasında toxunmuş bu xalçalar "Bilici", "Qaraqaşlı", "Mollakamallı", "Pirəbədil", "Təkyə", "Uqah", "Zeyvə" "Şahnəzərli", "Rukal", "Quruş", "Zeyid", "Qırız", "Həsənqala", "Dum klim", "Afurca", "Çiçi", "Alpan", "Cimi", "Hacıqayıb", "Qımıl", "Ördüc", "Yerfi", "Xaşi" və s. yüzdən artıq çeşninin saysız imitasiyasından alınan sənət əsərləridir.

Quba xalça qrupu xovlu xalçalarla yanaşı ərişi spirallı sadə keçirilməsi yolu ilə toxunan "palaz" və qarşılıqlı dolama

(mürəkkəb sünbül) üsulu ilə toxunan "sumax" kimi seçilən xovsuz xalçaların istehsal edildiyi bölgə kimi də şöhrət qazanmışdır.

Məişətdə geniş istifadə edilən xalça məmulatlarından xurcun, məfrəş, heybə, xaral, çanta, çul, duzqabı və s. öz toxunma texnikası, bədii tərtibatı ilə bölgənin bədii ənənələrini əks etdirirlər.

Quba qrupunun Afurca, Alpan, Cimi, Hacıqayıb, Möhüc, Qımıl, Qrız, Söhüb, Təngəaltı, Xaşı, Yerfi, Çiçi, Ördüc, Düztahir, Gədəzeyxur, Hil, Laza, Mucuq, Piral, Yasab, Yuxarı Tahircal, Zuxul, İmamqulukənd, Əniq, Digahoba, Həsənqala (Xaçmaz), Nərəcan, Seyidlər (Xaçmaz), Susayqışlaq (Xaçmaz), Xuray, Zıxuloba, Çarxı, Çaxçaxlı, Dağ Bilici, Düz Bilici, Hacıqaraqaşlı, Mollakamallı, Pirəbədil, Pirəmsən, Rəhimli, Sumağava, Təkyə, Uqah, Zağlı, Zeyvə (Şabran), Zöhramı, Şahnəzərli, Əmirxanlı (Şabran) kimi əsas xalçaçılıq mərkəzləri var.

*Şəkil 34. **Xalça fraqmenti. "Pirəbədil". Quba qrupu***





*Şəkil 35. **Quba qrupu xalçalarından fraqmentlər***

# ŞIRVAN QRUPU



*Şəkil 36. Şirvan qrupu xalçalarından fraqmentlər*

Şirvan xalçaları istehsal texnologiyasına görə xovsuz və xovlu, bədii (naxış) xüsusiyyətlərinə görə isə süjetli və süjetsiz növlərə bölünür. Şirvanın xalçaçılıq mərkəzləri Şamaxı, Ağsu, Kürdəmir, Hacıqabul, Ağdaş, Göyçay, Zərdab, İsmayıllı, Şəki, Qax, Qobustan, Ucar rayonlarının bir sıra kəndlərini əhatə edir. Qəbələ və Salyan xalçaları texniki və bədii cəhətdən Şirvan xalçalarının eyni olduğu üçün onları da bu qrupa aid edirlər.

Şirvanın ən böyük xalçaçılıq mərkəzi Şamaxı şəhəri və onun ətrafında yerləşən qəsəbə və kəndlər olmuşdur.

Şirvanın xalçaçılıq mərkəzlərindən olan Göyçayda xovsuz və xovlu texnika ilə xalça və xalça məmulatları toxunmuşdur.

Digər xalçaçılıq mərkəzlərindən olan Kürdəmirin "Şilyan", "Kürdəmir" və "Sor-sor" adlanan xalçaları çox məşhurdur.

Ucarın Yuxarı Şilyan kəndində tarixən xalça toxunmuş və bu sənət qorunub saxlanılmışdır. Zərdabda əhalinin məişət tələbatını ödəmək məqsədilə xovlu və xovsuz xalçalar toxunmuşdur.

Qobustan rayonu da tarixən Azərbaycanın ən qədim xalçaçılıq mərkəzlərindən biri olmuşdur. Bu rayonun "Nabur", "Mərəzə", "Ərçiman", "Qobustan", "Şilyan", "Xilə", "Məkkə-Mədinə", "Qəşəd", "Bico", "Şamaxı", "Pirhəsən" adlanan xovlu xalçaları, kilim, palaz, zili kimi xovsuz xalçaları və xalça məmulatları çox məşhurdur.

Şirvanda toxunan xovlu xalçalar 35x60, 37x50, 40x55, xovsuz xalçalar isə 22x60, 18x50, 15x60, 33x50, 30x55 sıxlığında olur.

Şirvan ərazisində toxunmuş "Qobustan" adlandırılan xalçalar üçün səciyyəvi olan xüsusiyyətlərdən biri onların uzunsov formalı beş xalıdan ibarət olmasıdır. Bu xalçaların ölçüsü adətən 120x500 sm olur. "Ortalıq", iki yan tərəflərə salınan "yanlıq", otağın baş hissəsinə salınan "başlıq" və qapıya yaxın olan hissəsinə döşənən "ayaqlıq" adlandırılırdı. Qoyun, bəzən isə dəvə yunundan, yaxud ipək və pambıq tərkibli iplərdən toxunan xalça məmulatlarının əsas toxunma mərkəzi Qobustan kəndi olmuşdur. Qobustanda toxunan xalçalar incə, parıltılı, yumşaq və nazik olurdu. Toxucular bu tip xalçaları "taxta" adlandırırdı.

Şirvan xalçalarının kompozisiya və ornamentlə yanaşı, üçüncü bədii xüsusiyyəti onun kolorit həllidir. Rəng amilinin böyük əhəmiyyətə malik olduğu danılmaz faktdır. Hər hansı digər əşya kimi xalçalar da ilk növbədə rəng və işıq kontrastları sayəsində diqqəti cəlb edir. Şirvan qrupunun xovlu xalçalarında rənglər palitrası bir qədər fərqlidir. Bəzi xalça növləri, məsələn, ″Qobustan″ xalçaları üçün ara sahə fonu, demək olar ki, mütləq ağ və ya tünd-göy rəngdə olur. ″Qobustan″ xalçalarında ana (əsas) haşiyə qırmızı, ağ, sarı və hətta ara sahə ilə analoji tünd-göy rənglərdə ola bildiyi halda, istər ara sahənin, istərsə də haşiyələrin əsas ornamentləri və doldurucu elementləri üçün ağ, qırmızı, sarı, göy, yaşıl, tünd-göy, mavi rənglərdən istifadə edilir. Bəzi xalçalarda ara haşiyədə ağ, sarı, qırmızı rənglər üstünlük təşkil edir. İstər ara sahənin, istərsə də ana və bala haşiyələrin ornamentləri və elementləri, onların konturları üçün, əsasən, ″Qobustan″ xalçalarında olan rənglərdən istifadə edilir.

Şirvan xalçalarının rəng xüsusiyyətlərini ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar: həmin xalçaların əksəriyyətinin ara sahə fonu tünd-göy rənglidir. Hərçənd ki, bunlardan ara sahə fonu ağ, mavi, qırmızı, sarı, qara və hətta (çox az hallarda) başqa rənglərdə olanlarına da rast gəlinir. Əsas ara haşiyə fonunda sarı, ağ və qırmızı rənglərə üstünlük verilir. Tünd-göy, göy, mavi, oxra və s. rənglərə nisbətən az təsadüf edilir. Ara sahə fonu üçün tünd-göy rəngdən istifadə edildikdə ara haşiyə fonu çox zaman sarı, yaxud, qırmızı rəngdə olur. Bütün qalan rənglərin ara sahə fonunun tünd-göy rəngi ilə uzlaşdırılmasına çox az rast gəlinir. Burada bütövlükdə kontrastlı rəng uzlaşmaları üstünlük təşkil edir.

Şirvan xalçalarında ara sahə və ara haşiyə fonlarının eyniliyi də (az-az hallarda olsa belə) müşahidə edilir. Ara sahə fonunun onun üzərində əsas motivlərin fonu ilə uzlaşdırılmasında da kontrastlıq saxlanılır. Tünd-göy fonda həmin motivlər çox zaman sarı, ağ və yaxud qırmızı rəngli olur. Mavi, göy, yaşıl rənglər nisbətən az işlədilir. Qalan rənglərə, ümumiyyətlə, az təsadüf edilir. Ara sahə elementlərinin rəngi, əsasən, ağ olur. Gəzmələrdə isə qara və qırmızı rənglərə üstünlük verilir. Ara haşiyənin elementləri çox zaman qırmızı rəngdədir, lakin bunların sarı, mavi, ağ və tünd-göy rəngdə olması hallarına



*Şəkil 37. Şirvan qrupu xalçalarından fraqmentlər*

da tez-tez rast gəlinir. Digər rənglərdən burada çox az istifadə edilir. Şirvan xalçalarının kiçik haşiyə, mədaxil və zəncirə elementlərində ən geniş rəng çalarından istifadə olunmuşdur.

Beləliklə, Şirvan qrupunun hər bir konkret xalçasında rəng ahəngdarlığı yaradılması özünəməxsus şəkildə həll olunur. Bu hal digər istehsal mərkəzləri və onların məntəqələrinin əksər xalçalarında da özünü göstərir.

Şirvan qrupuna daxil olan xalçalar Göylər, Ərçiman, Ərəbqədim (Şamaxı), Namazgah, Qalacıq (İsmayıllı), Topçu, Zeyvə (İsmayıllı), Zərgəran, Bico, Kalva, Padar, Pirhəsənli, Qaraqaşlı (Ağsu), Təklə (Ağsu), Ərəbuşağı, Alpout (Göyçay), Qarabaqqal, Qaraməryəm, Qarayazı, Çayarxı, Şahsoltanlı, Şıxəmir, Aşağı Nemətabad, Eymur, Kotanarx, Malay, Pirəzə, Qaradeyin, Əmirarx, Cəmcəmli, Cəyirli (Qobustan), Dərərkənd (Qobustan), Lilmilli, Nabur, Poladlı (Qobustan), Qurbançı, Təklə (Qobustan), Çelov, Çuxanlı (Qobustan), Şıxzahırlı, Ərəbqədim (Qobustan), Ərəbşahverdi (Qobustan), Ərəbşalbaş kimi kəndlərdə toxunur.





*Şəkil 38. Şirvan qrupu xalçalarından fraqmentlər*

*Şəkil 39. Xalça fraqmenti. Şirvan qrupu*



## GƏNCƏ QRUPU

Gəncə bölgəsi əhalisinin məişətində xalça və xalça məmulatları əsas yer tutur. Gəncə və onun ətrafında müxtəlif ölçülü xalçalarla, kilimlərlə bərabər namazlıqlar, çullar və digər toxunma məmulatları da var idi. Zəngin təbiəti bu bölgənin xalçalarına xüsusi çalarlar vermiş, onun rəng kompozisiyasının həllinə çoxçeşidli boyalar bəxş etmişdir. Al-əlvan boyalar bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyətdir. Xalçaların naxış-kompozisiya seçimində də yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tutmuş, onların ifadəsi xalçalarda öz əksini tapmışdır. Mifoloji quşlar, heyvanlar, həmçinin, dünyaya yanaşma tərzindən irəli gələn semantik elementlər bu bölgənin xalçaları üçün spesifik idi. Azərbaycanın müxtəlif xalçaçılıq qrupları ilə sıx əlaqəsi duyulan Gəncə xalçalarının bu ərazidə yaşayan insanların düşüncə və hisslərinin əsas müstəvisi kimi çıxış etdiyini söyləmək olar.

Gəncə xalça qrupunun başlıca istehsal məntəqələri əsasən Gəncə şəhəri, onun ətraf kəndləri, habelə Gədəbəy, Goranboy, Şəmkir, Göygöl, Daşkəsən və Samux rayonlarından ibarətdir. Təbii ki, bu məntəqələrin hər birində toxunan xalçalar özlərinə məxsus formaları ilə seçilirlər. Ümumilikdə isə Gəncə xalçalarının xarakterik xüsusiyyətləri onların nisbətən uzunsov, habelə hündür xovlu, müxtəlif ilmə sıxlığında və naxışlarının nisbətən iri həcmdə olmasıdır. Xovsuz xalçalara da müxtəlif sıxlıqda rast gəlinir. Gəncə bölgəsində o qədər də iri olmayan xalçaların toxunması üçün evlərdə və ya həyətdə quraşdırıla biləcək daşınan kiçik xanalardan, daha böyük ölçülü xalıların toxunması üçün isə iri stasionar xanalardan istifadə edilirdi. Bu xanalara ərişin çəkilməsi prosesi bir neçə peşəkar ustanın əməyi ilə həyata keçirilirdi.

Gəncə qrupu ən çox "Tapqaraqoyunlu", "Çaylı", "Qaracəmirli", "Faxralı", "Topalhəsənli", "Mollabayramlı" kompozisiyaları ilə tanınır. Burada toxunan xalçalardan "Samux", "Çaylı", "Faxralı" çeşniləri sabit formalı, qapalı tipli, ara sahəsi göllərlə bəzədilmiş bədii tərtibata malikdir. Gəncə qrupuna aid xalçaların sıxlığı 25x40, 27x35, 32x30 aralarında olur.



*Şəkil 40. Gəncə qrupu xalçalarından fraqmentlər*







*Şəkil 41. Gəncə qrupu xalçalarından fraqmentlər*



Gəncə xalçalarının naxışları əsasən həndəsi formalı bəzək elementlərindən ibarətdir. Onların heç biri sadəcə görüntü olaraq vizual məna kəsb etmir. Hər bir naxışın öz mənası və təyinatı vardır. Məhz bu səbəbdən də xalçalardan müxtəlif mərasimlərdə – qızlara elçi gəldikdə, yas və ya dəfn mərasimində, nəzirlik, cehizlik, namazlıq üçün, xatirə olaraq və s. istifadə edilmişdir. Bu rəmzilikləri nəzərə alaraq naxışların nə qədər arxaik dövrə aid olduğunu təxmin etmək olar. Yuxarıda göstərilənlərə əsasən qeyd etmək olar ki, ən qədim zamanlarda xalçaların hər bir evdə, hər kəsin istifadəsində olması mümkün olmamışdır. Xalça naxışlarına, onların mənasına görə uyğun məqamlarda, məhdud dairədən olan insanların istifadəsində olmuş, sarayların bəzəyinə, şahların hədiyyəsinə çevrilmişdir. Sonralar xalqın istifadəsində geniş yayılmış, əmtəəyə çevrilmişdir. Gəncədə toxunan xalçalar üzərində hicri təqvimi ilə onun istehsal tarixi, ustanın adı, mənsubiyyət bildirən şərti nişanlar belə toxunmuşdur.

Gəncə toxucularının xalçalarda ən çox istifadə etdikləri ətrafları pilləli göl, qarmaqlı naxış, romb, üçbucaq, səkkizguşəli ulduz, ceyran, quş, damğa təsvirləridir. Naxışların digər qismi gül formasından və ya fantastik heyvan təsvirlərindən ibarət olub, kiçik ölçülərdə toxunduqları üçün xalçalarda aparıcı mövqe tutmurlar. Bu naxışlarda tarixin neçə-neçə qatı var. Bu təsvir üslublarının analoqu heç bir başqa xalqda yoxdur. Bunlar inanclardan irəli gələn naxış növləridir – səkkizguşəli ulduz səma cisimlərinə inamdan yaranmış, romb dünyanın qadın başlanğıcı, artım, bolluq rəmzi, pilləli göllər Yaradana doğru aparan ilahi yüksəliş yolu, üçbucaq yenə də səmaya, Tanrıya gedən yol kimi yozulur. Bunlardan başqa, quş obrazı kimi elə elementlər də vardır ki, onlar miladdan öncə günəşin, səmavi dünyanın, İslam fəlsəfəsinə görə cənnətin, daha sonralar isə oğuz boylarına mənsub olan damğaların rəmzi sayılmışlar. Bu zaman ərzində onların təsvir formaları bir çox bədii, tarixi, fəlsəfi təsirlərdən assimilyasiyaya uğramış, stilizə edilmiş yeni ifadə formalarında xalçalar üzərində toxunmuşdur. Məhz bu təsəvvürlərdən irəli gələrək çox zaman Gəncə xalçalarında toxunan gölləri əhatə edən qarmaq və ya caynaq adlanan elementlər yaranmışdır. Əsasən yırtıcı ov quşlarının simvo-

lı olan qartal qədim türklərə, oğuzlara məxsusdur. Məhz Gəncə qrupuna aid bir çox xalçalar üzərində nəinki caynaq, bəzi hallarda hətta stilizə edilmiş quş, qartal başlarının belə təsvirləri toxunmuşdur. Gəncə xalçaları əsasən Almədətli, Balçılı, Gürzalılar, Mollacəlilli, Sarısu, Pənahlılar, Sərkarlı, Topalhəsənli, Nadirkənd, Qaşaltı, Şadılı, Səfikürd, Tap, Xan Qərvənd, Zeyvə, Aşağı Seyfəli, Bayramlı, Dəllər Çırdaxan, Könüllü, Qapanlı, Qaracəmirli, Morul, Arıqıran, Çaldaş, İnəkboğan, Rüstəm Əliyev, Səbətkeçməz, Söyüdlü, Zəhmətkənd, Dəstəfur, Əmirvar, Mollahəsənli, Qarayeri, Bağbanlar, Tatlı, Ziyadlı, Şahsevənlər məhəlləsi, Qazaxlar məhəlləsi, Qırxılı məhəlləsi, Toxanlı məhəlləsi, Mollacəmilli məhəlləsi, Hacıməlikli məhəlləsi, Boyaqçılar məhəlləsi kimi xalçaçılıq məntəqələrində toxunur.



*Şəkil 42. Xalça fraqmenti. Gəncə qrupu*





*Şəkil 43. Gəncə qrupu xalçalarından fraqmentlər*



*Şəkil 44. Qazax-Borçalı qrupu xalçalarından fraqmentlər*

## QAZAX-BORÇALI QRUPU

Qazax-Borçalı xalça qrupu (bəzən Qazax adı ilə də təqdim edilir) dedikdə böyük tarixi ənənəyə, yaradıcı inkişaf yoluna malik və dünya inciləri sırasında şərəfli yer alan nəfis, rəngarəng xalçalar göz önünə gəlir. Bu xalça qrupuna indiki Qazax, Ağstafa, Tovuz rayonları və Borçalı mahalı (Qarayazı, Başkeçid ilə birgə) ərazisində olan kəndlərdə toxunan xalçalar daxildir. Bu bölgələri bir-birinə bağlayan mədəni, iqtisadi amillər xalçatoxuma texnikası və onun naxış tərtibatında da yaxınlıq yaratdığından, onların bir qrupda birləşdirilərək tədqiqi elmi baxımdan daha doğru olar.

"Qazax xalçası" dedikdə, bir qayda olaraq Bakı, Şirvan, Quba, Təbriz xalçalarından bədii və texnoloji üsullarına görə tam fərqli olan ağır çəkili, hündür, lakin yumşaq və parlaq xovlu yunu, 1.50x2.00, 2.20x2.60 sm və ya 300x150, 300x200 sm. ölçülərində olan xalçalar nəzərdə tutulur. Bəzi hallarda bu qrupda toxunan xalçaların boyu uzun olmasına görə yolluğu xatırladırlar. İlk baxışdan qalın görünən bu xalçalar ən yüksək keyfiyyətli yundan toxunardı. Bu ənənə indi də yaşamaqdadır. Bu xalçalarda təbii boyalardan alınmış qırmızı, sumağı, sürməyi, sarı, qəhvəyi, yaşıl, şəkəri, mavi rənglərdən ibarət kolorit həlli öz uyarlığı ilə diqqəti cəlb edir.

"Muğanlı", "Ulduzlu Qazax", "Şıxlı", "Daş Salahlı", "Öysüzlü", "Qaraçöp", "Ləmbəli", "Qarayazı", "Borçalı", "Faxralı" və s. xalçalar Qazax-Borçalı qrupuna daxil olan qiymətli sənət nümunələridir. Bu bölgədə xovlu xalçalarla yanaşı zili, vərni, şəddə, palaz, kilim kimi xovsuz xalçalar və məfrəş, xurcun, heybə, duz torbası, yəhərüstü, çul və s. xalça məmulatları da toxunmuşdur. Kilimlər arasında ən məşhur çeşnilər isə "Qədirqə kilim", "Qoçbuynuz kilim", "Daraxlı kilim"dir.

Bu qrupa aid xalçalar 20x35, 25x30, 27x32 sıxlığında toxunur.

Qazax-Borçalı qrupu xalçaları bir çox hallarda toxunduğu ərazinin adını bildirsələr də, quruluş strukturlarına görə xalq arasında şərti adlar da daşıyırlar. "Borçalı" kompozisiyasının bu növ bədii tərtibatı, digər xalçalara nisbətən ara sahəsində toxunmuş iri ölçülü gölə əsasən "Çanaqlı bağa" kimi də tanınır.

"Qaraçöp" xalçasının mərkəzini səkkizguşəli iri göl, onun baş və ətək hissəsində isə dörd ədəd həndəsi formalı

səkkizbucaqlı və nisbətən kiçik həcmdə, ətrafları buynuzu xatırladan qarmaqlarla bəzədilmiş düzbucaqlı həndəsi element əhatə edir. "Qaraçöp" xalçasının bədii tərtibatı heyvandarlıqla məşğul olan əhalinin təsərrüfatı, əkin sahəsi, ümumilikdə yaşam tərzi ilə çox bağlıdır.

Qazax-Borçalı qrupunda toxunan xalçalarda bir çox hallarda totem izlərinə, müxtəlif tayfalara məxsus damğalara da rast gəlmək olur. Bu sıradan "Qazax" xalçasının ara sahəsi bütövlükdə svastika nişanları ilə bəzədilmiş olsa da, bəzən bu element "əjdaha" motivinin təkmil forması kimi də qəbul edilir.

Bu qrupa xas ənənələr xovsuz xalçalarda da yaşamaqdadır. Kilim, palaz, zili xovsuz xalçalarında və məişətdə hazırda da istifadədə olan xurcun, məfrəş, örkən, süfrə, mütəkkə kimi məmulatlarda rast gəldiyimiz rəng ahəngi, bədii quruluş, naxış dəst-xətti, toxuma üslubu digər qruplardan fərqlənir.

Bu qrupda toxunan xovsuz xalçaların fərdi özəllikləri vardır. Bunu kilimlərdə aydın görmək olar. Ərişi rəngli iplikdən çəkildiyi üçün bütün səthi şaquli istiqamətdə rəngli zolaqlardan ibarət olan, "Qədirqə kilim" adı ilə tanınan kilimlərin bədii quruluşu tam fərqlidir. Bəzən Qazaxda bu növ kilim "Qara ağac" da adlanır. Bu da kompozisiyada yer alan ətrafları dilikli, ağacabənzər uzun zolaq formalı tərtibatdan irəli gəlir.

Qazax-Borçalı qrupunda toxunan xalçalar arasında "Namazlıq"lar da seçilirlər. Baş hissəsində mehrab, hicri təqvimi ilə tarixi, gülabdan, təsbeh, möhür, daraq, bəzən isə ağac motivləri ilə bəzədilən "Namazlıq" xalçaları yerli ənənələri həm bədii, həm də texniki cəhətdən özündə yaşadır.

Bu qrupa mənsub olan xalçaları bütün dünyada tanıdan və onlara şöhrət gətirən keyfiyyətlərdən ən əsası onların təsirliliyi, qədimliyi, genetik mənsubiyyətini və bədii quruluşunu olduğu kimi özündə qoruyub saxlamasıdır.

Qazax-Borçalı qrupuna aid xalçalar Aslanbəyli, Aşağı Salahlı, Daş Salahlı, Kəmərli, Qaymaqlı, Çaylı, İkini Şıxlı, Bayramlı (Tovuz), Bozalqanlı, Cəlilli, Düz Cırdaxan, Qaraxanlı (Tovuz), Xatınlı, Yuxarı Öysüzlü, İbrahim Hacılı, Əlibəyli (Tovuz), Əsrik Cırdaxan, Aşağı Kəsəmən, Dağ Kəsəmən, Eynallı, Göycəli, Köçəsgər, Muğanlı (Ağstafa), Qıraq Kəsəmən, Tatlı (Ağstafa) kimi kəndlərdə toxunur.



*Şəkil 45. Qazax-Borçalı qrupu xalçalarından fraqmentlər*

# İRƏVAN QRUPU



*Şəkil 46. İrəvan qrupu xalçalarından fraqmentlər*



Rəngarəng və zəngin təbiətə malik olan Qərbi Azərbaycan, əsasən, dağlıq və dağətəyi bölgə hesab olunur. Bol sulu çaylar, çəmənliklər bu ərazini xüsusilə heyvandarlıq üçün yararlı etmişdir. Altı iqlim zolağı bu bölgəyə xüsusi rəng və çalar verir. Vedi və Qəmərli, Əştərək bölgələri zəngin bağları, üzümlükləri, Mehri ərazisi subtropik meyvələr ilə seçilirdisə, qalan ərazilər daha çox alp çəmənlikləri və dağ bitkiləri ilə məşhurdur. Əsasən, palıd, vələs, çinar, armud, alma, gilas, qoz, zoğal və alça ağacları ilə zəngin olan meşə örtükləri ilə yanaşı, bu yurd yerinin çöllərində yovşan, rəngarəng bitkilər, qayalarında isə cürbəcür kollar bitirdi. Relyefin mürəkkəb və çoxcəhətli olması onun bitki aləmini də təkrarsız edirdi. Yüksək dağ və rəngarəng güllər, çiçəklərlə min bir rəngə çalan alp çəmənlikləri özlüyündə, sanki böyük bir xalça timsalı idi. Bu amillər istər heyvandarlığın, xüsusilə də qoyunçuluğun inkişafını, istərsə də təbii boyaqların alınmasını şərtləndirirdi.

Bu ərazidə yaşayan azərbaycanlıların məişətində xalça və xalça məmulatları əsas yer tutur. Qərbi Azərbaycanda müxtəlif ölçülü xalçalarla, kilimlərlə bərabər, namazlıqlar, çullar və digər toxunma məmulatları da var idi. Zəngin təbiəti bu bölgənin xalçalarına xüsusi çalarlar vermiş, onun rəng kompozisiyasının həllinə çoxçeşidli boyalar bəxş etmişdir. Al-əlvan boyalar bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyətdir. Xalçaların naxış-kompozisiya seçimində də yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tutmuş, onların ifadəsi xalçalarda öz əksini tapmışdır. Mifoloji quşlar, heyvanlar, həmçinin dünyaya yanaşma tərzindən irəli gələn semantik elementlər bu bölgənin xalçaları üçün spesifik idi. Azərbaycanın müxtəlif xalçaçılıq məktəbləri ilə sıx əlaqəsi duyulan İrəvan xalçalarının bu ərazidə yaşayan insanların əsas düşüncə və hisslərinin müstəvisi kimi çıxış etdiyini söyləmək olar.

İrəvan xanlığı və onun bölgələrinin Azərbaycan xanlıqları, eləcə də bir çox xarici ölkələrlə geniş ticari əlaqəsi olmuşdur. 1782-ci ildə İrəvanda olan rusiyalı Reyneks buranın pambıq parça, ipək, yazlıq buğda, şərabla bol olduğunu söyləmişdir.

Burada, həmçinin çəltik istehsalı, küncüt, kətan əkilib-becərilirdi. İ.Şopen İrəvanda olarkən xanlığın ərazisində gördüyü toxmacarlıqların sayını ipəkçiliyin geniş yayılması ilə əlaqələndirir. İrəvan ərazisi meyvə və üzüm bağları, müxtəlif növ bağ-bostan bitkiləri, tərəvəz məhsulları ilə məşhur idi. Dövrün mənbələrində 1782-ci ilin martında bayazitli İsak Paşanın xahişi ilə İrəvandan Bayazitə yeddi min dinar, iki abbası dəyərində qara qarpız, göy qarpız, mürsəqulu, xiyar, sürahi, reyhan, xına tozu, badımcan və s. toxumların göndərilməsi haqqında danışılır. Üçkilsə məbədinin məxaric dəftərində qeyd edilmiş toxum adlarının hamısı Azərbaycan türkcəsindədir. Dövrün mənbələrində bu toxumların adlarının Azərbaycan türkcəsində yazılması, bu torpaqda qədim dövrlərdən elə Azərbaycan türklərinin yaşadığını, onların oturaq təsərrüfatla, xüsusilə də əkinçilik və kənd təsərrüfatının digər sahələri ilə məşğul olduğunu, ermənilərin isə bu bölgəyə sonradan gəldiyini bir daha sübut edir.

Ağrı vadisində Azərbaycanın digər bölgələri üçün səciyyəvi olan yaylaq, qışlaq maldarlığı inkişaf etmişdi. Qırxbulaq, Göyçə, Aparan, Dərəçiçək, Gərnibasar, Vedibasar, Talın mahallarındakı otlaqlar heyvandarlıq üçün münbit şərait yaradırdı. O dövrün mənbələrinin birində İrəvana Təbrizdən çoxlu karvanların gəlməsinə dair məlumat verilir. İrəvandan Tiflisə, Ərzuruma, Axalsıxa, Qarsa pambıq, Təbriz, Xoy, Bayazidə düyü, buğda, arpa və duz aparılırdı. İrəvan bölgəsinin yolların kəsişməsində yerləşməsi çoxlu sayda körpülərin, karvansaraların, zərbxanaların və bazarların olmasına rəvac verirdi. Ticarət yollarından biri Hindistan, Mərkəzi Asiya və İranı Təbriz və Naxçıvan vasitəsilə İrəvan xanlığına bağlayan karvan yolu idi. Bu yola Ərzurum yolu və ya Bəzirgan yolu da deyirdilər. İrəvandan Ərzuruma gedən digər karvan yolu Aparan və Alagöz dağının şimal ətəyindən keçib Qarsa, oradan da Həsənqalaya yetişir, sonda ana xəttə qovuşurdu. İrəvandan Tiflisə gedən karvan yolu Üçkilsə, Sərdarabad, Hamamlı, Calaloğlu və Şulaverdən də keçirdi. XVII əsrdə fransız səyyahı J. Şarden bu yolun uzunluğunun İrəvan-Ağstafa yolu qədər olduğunu yazırdı. J.Şarden bu yolun üstündə yerləşən yaşayış məntəqələrinin adını da qeyd etmişdir. İrəvandan Ağstafaya gedən yolda Bjni, Keşikkənd,



*Şəkil 47. İrəvan qrupu xalçalarından fraqmentlər*

Dəlican, Qaradaş, Məlikkənd, Körpükənd yaşayış məntəqələri yerləşirdi. İrəvan bu yolla Gəncə ilə əlaqə saxlayır, Şamaxıda isə Azərbaycanın Rusiyaya gedən əsas ticari yoluna bağlanırdı.

İrəvan xanlığından da əvvəlki dövrlərdən başlayaraq burada dekorativ tətbiqi sənət sahələri arasında xalçaçılıq xüsusi yer tutmuşdur. Naxış kompozisiyasına görə Qazax, Gəncə, Qarabağ, Naxçıvan, Şərqi Anadolu və Təbriz xalçaçılıq məktəblərinə daha yaxın olan İrəvan xalçaçılıq məktəbinin nümunələri zaman-zaman xarici ölkələrə daşınmış, erməni kolleksiyaçılarının sərvətinə çevrilmişdir. Bu gün erməni xalçası kimi təqdim edilən bu incilər azərbaycanlı ilmə ustaları tərəfindən toxunmuşdur. Xalça, kilim, palaz, şəddə, eləcə də digər toxuculuq məmulatlarının meydana gəlməsi tarixən qoyunçuluqla məşğul olmayan ermənilər üçün xarakterik deyildi.

İrəvan xalçalarının sıxlığı 22x37, 25x35, 29x30 arasındadır. Bu xalçalar İrəvan şəhəri daxil olmaqla Ağbaba, Şörəyel, Loru, Pəmbək, Şəmşəddin, Göyçə, Gərnibasar, Vedibasar, Zəngibasar, Sərdarabad, Qırxbulaq, Əştərək, Aparan, Dərərçiçək, Talın, Zəngəzur, Dərələyəz mahallarında toxunmuşdur.



*Şəkil 49. İrəvan qrupu xalçalarından fraqmentlər*

*Şəkil 48. Xalça fraqmenti. İrəvan qrupu*



## QARABAĞ QRUPU

Azərbaycanın digər bölgələrində olduğu kimi, Qarabağda da xalçalar xovlu və xovsuz texnika ilə toxunmaqla iki qrupa bölünür. Birinci qrupa xovsuz texnika ilə toxunan həsir, çətən, buriya, palaz, cecim, kilim, vərni, şəddə, zili, sumax və ladı adlı xalçalar daxildir. Xovsuz xalçalar qrupuna daxil olan xalça və xalça məmulatlarının toxunuşu arğacların əriş iplərinə "sadə keçirtmə", mürəkkəb keçirtmə və "sadə dolama" üsulu ilə əmələ gəlir. Bu bölgədə zili, vərni, kilim, cecim, şəddə, ladı, məfrəş, duz torbası, xurcun, at çulu kimi xovsu xalçalar toxunur.

İkinci qrup xovlu xalçalardır. Bu qrupa xalı və xalçalar daxildir. Xovlu xalçaların toxunuşu "düyünləmə" üsulu, yəni "dolama ilmə" və yaxud "qüllabı ilmə" ilə əmələ gəlir. "Çələbi", "Malıbəyli", "Açma-yumma", "Balıqlı", "Xançərvənd", "Xanlıq", "Qasımuşaq", "Qoca" adlı xalçalar Qarabağ qrupuna aid məşhur çeşnilərdir.

Qarabağın dağlıq zonasında XIX əsrdə xalça istehsalında Şuşa ilə yanaşı, Daşbulaq, Dovşanlı, Çanaqçı, Tuğ, Tağlar və digər kəndlər əsas rol oynamışlar. Dağlıq zonaya nisbətən şübhəsiz ki, xammalla daha yaxşı təmin olunmuş aran rayonlarında Cəbrayıl, Ağdam, Bərdə, Füzuli və Yevlax xalça istehsalında əsas yer tutur. Bu mərkəzlərin hər birində, əhalisi satış üçün intensiv şəkildə xalça toxuyan, müəyyən miqdarda kəndlər mövcud olmuşdur. Qarabağın xovlu və xovsuz xalçalarının ölçüsü başqa xalçalara nisbətən böyükdür. Bu bölgədə 2 kv. m.-dən 20 kv. m-ə kimi ölçüsü olan xalçalar toxunurdu. Bəzən ölçüsü 25 və 30 kv. metr olan xalçalara da rast gəlmək olur.

Qarabağın xalçalarının ilmə sıxlığı 23x36, 27x30, 29x32 olur. Bu bölgənin xalçalarında bir kv. metrdə 90.000-dən 160.000-nə qədər ilmə yerləşir. Bəzən bir kv. metrdə 200.000 ilməsi olan xalçalara da təsadüf edilir. Bu xalçalar qüllabı ilmə toxunuşlu olur.

Qarabağ qrupuna daxil olan xalçaların ilmə hündürlüyü, yəni qalınlığı 6 mm-dən 10 mm.-ə qədər olur. Burada toxunan xalçalar əksər hallarda uzunsov olur. Bu xalçaların sıxlığı orta və az olmasına baxmayaraq möhkəm, qalın və xeyli davamlıdır.



*Şəkil 50. **Qarabağ qrupu xalçalarından fraqmentlər***



Şəkil 51. **Qarabağ qrupu xalçalarından fraqmentlər**

Qarabağ xalçalarının kompozisiyası zəngin olub, mürəkkəb kompozisiya quruluşuna malikdir.

Qarabağ xalçalarında ümumi kompozisiyada əsas yer tutan və ən çox gözə çarpan elementlər bütün xalça kompozisiyalarında olduğu kimi beş qrupa bölünür:

*a) Butalar. Azərbaycan ornamentlərində çox geniş istifadə olunan buta Qarabağın həm xovsuz, həm də xovlu xalçalarında təsvir edilir.*

*Azərbaycanın müxtəlif bölgələrində xalça kompozisiyasında kök salmış buta Qarabağ xalçalarında da müxtəlif formalarda işlənmişdir. Qarabağın "Şabalıd buta" adlanan kompozisiyası öz bədii tərtibatına görə digər bölgələrin "buta" təsvirli xalçalarından seçilir.*

*b) Katəbələr. Xalça kompozisiyasında katəbə doldurucu rolunu oynayır. Adətən uzunsov katəbələrin üzərində toxucular müxtəlif yazılar, süjetli kompozisiyalar və yaxud müstəqil quruluşlu ornametlər yerləşdirirlər.*

*c) Anagüllər. Xalça kompozisiyası üçün xarakterik olan bu elementlərin xalçaların adlarının müəyyənləşdirilməsində əsas və əhəmiyyətli rolu vardır. Qarabağın "Qoca" adlı xalçasında "anagüllər" çox təkrar olunur.*

*ç) Göl və ya kiçik xonçalar. Qarabağ xalçalarında tez-tez rast gəlinən "göl", "xonça", "padnos" istilahları medalyon mənasını daşıyır. Azərbaycanın bütün bölgələrində toxunan xalçalarda təsadüf edilən göllər öz formalarına görə müxtəlif olduğu kimi, Qarabağda toxunan xalçalarda da müxtəlif formalarda təsvir edilirlər.*

*d) Qubbalar. Qubbalar əsas elementlər qrupuna daxildir və adətən xalça kompozisiyasında böyük göllərin başında (qurtaracağında) yerləşdirilir. Toxucular bu elementləri "başlıq" və yaxud "heykəlbaşı" adlandırırlar.*

Qarabağ xalçalarının rəng palitrası çox zəngindir. Bu xalçaların rəngləri şux və parlaq olur. Bu rənglər Qarabağın təbii coğrafi şəraiti, gözəl mənzərələri, bağları, meşələri və yaşıl çəmənlikləri ilə əlaqədar olaraq meydana gəlmişdir. Bu bölgədə qırmızı və çəhrayı rənglər boyaq ("marena") bitkisindən və qırmızı rəng bəzən "qırmız" adlanan qurddan, sarı və sarımtıl rənglər sarıçöp, sarıgüldən, noxudu və ya şəkəri rənglər - soğan və alma qabığından, palıdı rəng - qoz qabığından, sürməyi və göy rənglər - təbii indiqodan alınırdı.

Qarabağ bölgəsində toxunan xalçalar əsasən Baharlı, Birinci Alıbəyli,

Hacallı (Zəngilan), Nəcəflər, Ördəkli, Kəbirli (Ağcabədi), Pərioğullar, Qaravəlli (Ağcabədi), Qiyaməddinli, Şahsevən (Ağcabədi), Cəmilli (Tərtər), Hacıqərvənd, Poladlı (Tərtər), Seydimli, Səhləbad, Ağbulaq (Xocalı), Cəmilli (Xocalı), Dəmirçilər (Xocalı), Həsənabad (Xocalı), Kosalar (Xocalı), Kərgicahan, Mehdibəyli, Meşəli (Xocalı), Mədətkəndə, Qayabaşı (Xocalı), Aşıqalılar, Baharabad, Birinci Aşıqlı, Dünyamallar, Eyvazlılar (Beyləqan), Qaralılar, Tatalılar, Yuxarı Kəbirli, Ağdaban, Bağılpəyə, Başlıbel, Dəvədaşı, Kərəmli, Mollabayramlı, Qamışlı (Kəlbəcər), Qanlıkənd, Qaraxançallı, Qılıçlı, Seyidlər (Kəlbəcər), Taxtabaşı, Zar, Zəylik (Kəlbəcər), Arayatlı, Böyük Bəhmənli, Dövlətyarlı, Gorazıllı, Kürdmahmudlu (Füzuli), Qoçəhmədli, İşıqlı (Füzuli), Ələskərli, Balahəsənli, Eyvazlı (Qubadlı), Həkərli, Xanlıq, Əliquluuşağı, Aşağı Mərcanlı, Cocuq Mərcanlı, Məstalıbəyli, Qumlaq (Cəbrayıl), Süleymanlı, Boyəhmədli, Mahrızlı (Ağdam), Mirəşəlli, Muradbəyli (Ağdam), Mərzili, Qalayçılar, Qiyaslı (Ağdam), Şıxbabalı, Malıbəyli, Mirzələr, Qaybalı, Səfixanlar, Xəlfəli (Şuşa), Yuxarı Quşçular, Əmillər, Alpout (Bərdə), Ağalı (Bərdə), Kələntərli, Mirzəxan, Mustafaağalı, Məşədiibişli, Qaradırnaq, Qaraqoyunlu (Bərdə), Qaratəpə (Bərdə), Qazaxlar (Bərdə), Təhlə, Uğurbəyli kimi kəndləri əhatə edir.


*Şəkil 53. Qarabağ qrupu xalçalarından fraqmentlər*

*Şəkil 52. Zili fraqmenti. Qarabağ qrupu*




*Şəkil 54. Naxçıvan qrupu xalçalarından fraqmentlər*

## NAXÇIVAN QRUPU

Xalça sənətinin Naxçıvanda geniş yayılmasına və tərəqqisinə xalqın məişət və estetik tələbatı səbəb olmuşdur. Adətən, bu ərazidə istehsal edilən 6-12 $m^2$-dək iri ölçülü, qalın toxunuşa malik xovlu və keçə, palaz, cecim, kilim, şəddə, zili kimi xovsuz xalçalardan evlərdə döşəmələrin örtülməsində, otaqların isidilməsində və bəzədilməsində istifadə edilmişdir. Xalça sənəti Naxçıvanın Şərur, Şahbuz, Ordubad və Culfa bölgələrində daha geniş yayılmışdır.

Bu ərazidə xalça sənətinin inkişafına qonşu ölkələrlə olan ticarət əlaqələrinin də təsiri az olmamışdır.

Tarixən Naxçıvanda xalça istehsalında albas və mazex qoyun cinslərindən, keçi, dəvə yunu ilə yanaşı ipəkdən də geniş istifadə edilmişdir. Naxçıvanda toxunulan xalçalar bədii və texnoloji xüsusiyyətlərinə görə Qarabağ qrupu ənənələrinə yaxındır.

Naxçıvan xalçaları ümumilikdə Azərbaycan xalça sənətini öz ənənəvi naxışları və elementləri, özünəməxsus şux rəng çalarları ilə zənginləşdirmişdir. Bu xalçaları bəzəyən əsas elementlərdən şaquli istiqamətli zolaqlar, romblar, qarmaqlı həndəsi elementlər və nəbati ornamentlər, heyvan təsvirləri və s. xalqın genetik yaddaşından silinməyən inanclar və təsəvvürlərlə bağlıdır. Toxunan naxışlar sistemi semantika müxtəlifliyindən asılı olmayaraq bir məkan üzərində real şəkildə və ənənəvi üslubda yerləşdirilərək xalçaya ritmik və dinamik ahəngdarlıq verir.

Xalq toxuma növlərindən olan şaquli istiqamətli zolaqlarla bəzədilmiş cecim xovsuz xalçalarının əsas istehsal mərkəzi tarixən Ordubad olmuşdur. Əsasən ipək liflərdən toxunan bu xalçalar ağ, yaşıl, qırmızı, sarı, mavi və s. rəngli zolaqların növbələşməsi ilə bəzədilib, zəriflik baxımından qumaş təsəvvürü yaratmışdır.

Naxçıvan xalçaları içərisində spesifik toxunuşu və bədii quruluşu ilə seçilən xovsuz xalça növü şəddə süjet semantikası baxımından çox maraqlıdır. Üzərində bəzən atlıların və dəvələrin növbələşərək cərgə ilə düzülməsi, sarvan və ya çullarla bəzədilmiş dəvə karvanı süjetləri daim dövr edən əbədi həyatın, ömür karvanının simvolu olmuşdur. Ənənəyə görə, ərişi rəngli iplikdən çəkilən şəddələrdə doldurucu elementlər kimi istifadə edilən

romb və qarmaq formalı həndəsi naxışlar əkin sahəsini, evi, artımı, bolluğu təmsil etmişlər. Xovlu xalçaların bəzəyinə çevrilmiş «buta» elementi öz bədii quruluşuna və texniki üslubuna görə digər məktəblərdən fərqlənib , «Naxçıvan butası» adını daşıyır. Naxçıvanın «Namazlıq» xalçaları mavi, sürməyi və qırmızı rəngli kolorit həlli, naxışların bədii quruluş üslubu, günbəzlərin təsviri ilə islam mədəniyyətinin günümüzədək gəlib çatmış dəyərli nümunələrindəndir.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan qrupu xalçaları da xovsuz (həsir, çətən, buriya, palaz, cecim, kilim, vərni, şəddə, zili, sumax və ladı) və xovlu (xalı və xalçalar) texnika ilə toxunmaqla iki qrupa bölünür.

Naxçıvanda toxunan palaz və cecimlər xalça sənətinin ibtidai dövrünə aiddir. Kilim toxuma xalça sənətinin ikinci dövründə meydana gəlmişdir.

Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Naxçıvanda da palaz və kilimlərdən alaçıqlarda, dəyələrdə, eləcə də toyxanalarda istər daxili bəzək-döşəmə, istərsə də xarici örtük kimi istifadə olunurdu.

Xalçaçılıq sənətinin üçüncü dövrünə aid olan şəddə və vərnilər əksər hallarda əhalinin maldarlıqla məşğul olduğu yerlərdə toxunurdu. Buna görə də bölgədə bu tipli xalçaların üzərində başlıca olaraq stilləşmiş heyvan təsvirlərinə daha çox təsadüf edilir. Naxçıvanın dağlıq rayonlarında şəddə və vərni toxunuşlu at, dəvə, öküz çulu, pərdə, məfrəş və s. məişət əşyalarına tez-tez rast gəlinir. Şəddə və vərni istehsalının Naxçıvanda meydana gəldiyi güman edilir. Naxçıvanda nadir hallarda ipəkdən toxunmuş vərnilərə də təsadüf edilir. Mürəkkəb dolama üsulu ilə toxunan zili istər toxunuşuna görə, istərsə də bədii cəhətdən şəddə və vərniyə nisbətən daha artıq təkmilləşmişdir. Naxçıvanın zili bəzəklərində şərtiləşmiş heyvan təsvirlərindən başqa, ibtidai formada bir sıra həndəsi elementlər də meydana gəlmişdir. Burada sumax texnikası ilə xalça məmulatları da toxunmuşdur.

Xovlu xalçatoxuma üsulunun inkişaf etməsi ilə Naxçıvanda xalçaçılıq tarixində yeni dövr başlanır.

Tarixi inkişaf boyunca Naxçıvanda, əsasən, "Açma-yumma", "Qoca", "Buynuz", "Dəryanur", "Balıq", "Şabalıd buta" adlı xovlu xalçalar, şəddə, vərni və zili kimi xovsuz xalçalar üstünlük təşkil edirdi.



*Şəkil 55. Naxçıvan qrupu xalçalarından fraqmentlər*



*Şəkil 56. Duz torbası. Naxçıvan qrupu*



Şəkil 57. **Duz torbası. Naxçıvan qrupu**



*Şəkil 58. Naxçıvan qrupu xalçalarından fraqmentlər*



Naxçıvan xalçalarının ilmə sıxlığı 25x40-dan 27x36, 29x30-a qədər olur. Bu bölgənin xalçalarında bir kv. metrdə 87.000-dən 100.000-ə qədər ilmə yerləşir. Bu xalçalar qullabı ilmə toxunuşlu olur.

Naxçıvan qrupuna daxil olan xalçaların ilmə hündürlüyü, yəni qalınlığı 6 mm-dən 10 mm-ə qədər olur. Burada toxunan xalçalar əksər hallarda uzunsov olur. Bu xalçaların sıxlığı orta və az olmasına baxmayaraq möhkəm, qalın və xeyli davamlı olur.

Naxçıvan xalçaları zəngin, eyni zamanda, mürəkkəb kompozisiya quruluşuna malikdir.

Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da xalça sənətinin inkişaf dövrünü təşkil edən xovlu xalçaların kompozisiyası müxtəlif formalı elementlərdən qurulmuşdur.

Naxçıvan xalçalarının rəng palitrası çox zəngindir. Bu xalçaların rəngləri şux və parlaq olur. Bu rənglər Naxçıvanın təbii-coğrafi şəraiti, gözəl mənzərələri, bağları, meşələri və yaşıl çəmənlikləri ilə əlaqədar olaraq meydana gəlmişdir. Bu bölgədə qırmızı və çəhrayı rənglər boyaq ("marena") bitkisindən, qırmızı rəng bəzən "qırmız" adlanan böcəkdən, sarı və sarımtıl rənglər sarıçöp, sarıgüldən, noxudu və ya şəkəri rənglər soğan və alma qabığından, palıd rəngi qoz qabığından, sürməyi və göy rənglər təbii indiqodan alınırdı. Naxçıvanda təbii rənglərin boyama qabiliyyətini artırmaq məqsədilə toxucular arasında çox tətbiq edilən zəy, duz, mal sidiyindən və başqa bərkidici maddələrdən istifadə edilirdi. Naxçıvan xalça sənətinin rəng xüsusiyyətlərindən biri də budur ki, xalq ustaları tonların isti-soyuqluğunu, kontrastlılığını, rəng ahəngdarlığını-qanunauyğunluğunu yaxından hiss etmiş və nəticədə göz oxşayan, xoşagəlimli rəng palitrası yaratmışlar. Naxçıvan xalçalarının yüksək sənətkarlıq xüsusiyyətləri onların həm Azərbaycanda, həm də dünyada geniş yayılmasına səbəb olmuşdur.

Biçənək, Kolanı (Şahbuz), Kükü (Şahbuz), Dırnıs, Dərkənd, Gənzə, Məzrə (Ordubad), Əylis, Bənəniyar, Dizə (Culfa), Göynük, Qazançı (Culfa), Yayıcı (Culfa), Əlincə, Ərəfsə, Nehrəm, Cəhri, Hacıvar, Kültəpə, Qara-qala, Qaraxanbəyli (Babək), Xal-xal, Zeynəddin, Axura, Aşağı Aralıq, Havuş, Kosacan, Mahmudkənd, Maxta, Püsyan, Qarxun, Siyaqut, Tənənəm, Xanlıqlar, Zeyvə kimi məntəqlər Naxçıvanın əsas xalçaçılıq mərkəzləridir.

## TƏBRIZ QRUPU

Təbriz qrupuna "Təbriz", "Bəxşayeş ", "Qərəcə", "Görəvan", "Heris" və "Ovçuluq" kompozisiyaları, Ərdəbil qrupuna "Ərdəbil", "Şeyx Səfi", "Sərabi" və "Zəncan" çeşniləri daxildir.

Xovlu xalçalarla yanaşı özünəməxsus bədii-texniki məziyyətlərə malik olan xovsuz xalçalar da toxunubdur. Təbriz qrupuna daxil olan məntəqələrdə xovsuz xalçalardan palaz, kilim, vərni və zilinin, Ərdəbil qrupunda isə cecim, vərni və zilinin daha çox yayıldığını söyləmək olar.

Təbriz xalçaçılıq məktəbi bu kanonlaşmış nümunələrə tapınaraq, həm də onların kompozisiya həlli, ornament ritmi və rəng həlli ilə səsləşən, onlarla anım yaradan digər çoxsaylı çeşnilərlə də zəngindir.

Təbriz xalçaları dedikdə ilk olaraq göz önünə nəbati elementli çeşnilər gəlir. Bu bədii xüsusiyyət onun "tanınma nişanı"na çevrilibdir.

Xalça çeşnilərində yer alan əksər elementlərin insanların onları əhatə edən gerçəklikdə gördüklərinin stilizə, çox vaxt isə rəmzləşdirilmiş dekorativ görkəm alması birmənalıdır. Bu elementlərin öz növbəsində insanların yaşantılarının, həyata baxışlarının rəmzi olduğu qəbul edilsə, onda həm də düşüncə qaynağına çevrilən ornament və naxış elementlərinin fəlsəfi tutum daşıdığı aydın olar. Təbriz qrupuna daxil olan xalçaların naxış örtüyündə nəbati elementlərin əksəriyyət təşkil etdiyi nəzərə alınsa, onda sənətkarların qabarıq bədii stilizələrlə təqdim etdikləri sərv, nar, söyüd, palıd ağaclarının, qızılgül, lalə, qərənfil, nərgiz, zanbaq, süsən, nilufər kimi güllərin bədiiləşmiş görüntülərinin insan şüurunda qərar tutan əbədi fəlsəfi dəyərlərlə anım yaratması, onu həm də düşünməyə məcbur etməsi təbiidir.

Eyni fikirləri xalçaların gözəgəlimli naxış elementinə çevrilmiş insan, heyvan və quş təsvirləri barədə də demək olar.

Xalçalarda günəşi, işığı, dörd ünsürü və s. ifadə edən rəmzi mahiyyətli elementlərin yer almasında onların yaradıcılarının həyata fəlsəfi baxışlarının təsiri olduğu da qeyd oluna bilər.

Təbriz qrupu xalçalarında ən geniş yayılan elementlərdən biri "islimi"dir (Avropada "arabesk" adı ilə tanınır). Stilizə olunmuş yarpaq formasında olan



*Şəkil 59. Təbriz qrupu xalçalarından fraqmentlər*



*Şəkil 60. Təbriz qrupu xalçalarından fraqmentlər*

islimilər, əsasən, piçək-hələzunların (mərkəzində dairəsi olan spiralşəkilli bəzək elementi) dolama və sonluqlarında, bəzən də müstəqil işlədilir. Onlar formasına görə çox müxtəlifdirlər. Kompozisiyalarda sərbəst işlədilməyən islimilərin "sadə", "qanadlı", "haçalı", "hörmə", "butalı" və s. formaları vardır.

"Xətai" də Təbriz qrupu xalçalarının bədii örtüyündə önəmli rol oynayan elementlərdəndir. Bu elementin formasının "islimi"dən qaynaqlandığı bildirilir, fərq "xətai"nin ondan daha mürəkkəb formaya malik olmasıdır. "Xətai" formasına görə uzunsov olub, enli yarpağa bənzəyir, kənarları büzməli diliklər ilə əhatələnir. "Xətai" naxışları, bir qayda olaraq, biri digərinə birləşmiş formada olur, ara sahə və haşiyədə mürəkkəb kompozisiyaların yaradılmasında tətbiq olunur. "Xətai"lər kompozisiyaların ümumi ruhuna müvafiq daha çox stilizə olunurlar. Bu element də "islimi" kimi xalçanın bəzək dekorunda müstəqil işlədilmir.

"Yelən" haşiyənin ən enli zolağı olmaqla Təbriz qrupu xalçalarının naxış örtüyündə önəmli rol oynayır. Haşiyə sırasının mərkəzində yerləşən yelənə münasibət zaman-zaman fərqli olub. Ondan kompozisiyanın başlıca məzmununa uyğunlaşdırılmış məna daşıyıcısı kimi, çox vaxt isə, sadəcə, mərkəzi sahəni əhatələyən, ona kolorit baxımından yaxın olan rəngləri ilə bitkinlik verən dekorativ element kimi istifadə etmişlər. Təbriz xalçalarında ikinci xüsusiyyət üstünlük təşkil etsə də, son dövrlərdə müasir sənətkarlar tərəfindən yelənlərin də təkrarlanmayan element və düşündürücü məzmunla yükləndiyini müşahidə etmək mümkündür. Təbriz qrupu xalçalarının yelənlərində daha çox çiçək xonçalarına, bulud motivlərinə, üzəri çiçək və yarpaqla örtülü dalğavari budağın təsvirinə, kiçik kətəbə və spirallara, eləcə də epiqrafik bəzəyə rast gəlmək mümkündür.

"Epiqrafik bəzək" bir element kimi Azərbaycan xalçaçılığında ən çox Təbriz qrupuna aid nümunələrdə istifadə olunur. Əsasən "Qurani-Kərim"dən götürülmüş ayələrdən, Allahı, islam peyğəmbərini və hökmdarları mədh edən kəlamlardan, məşhur şairlərin misralarından ibarət bu epiqrafik bəzəklər ərəb qrafikasında – "nəstəliq" və "nəsx" xətlə yazılardı. Azərbaycanda islam dininin yayılması Təbriz xalçaçılığında "Namazlıq" tipli xalçaların yaranmasını şərtləndirdi ki, onların da yuxarı hissəsini – kətəbələrini

bəzək rolunu oynayan yazısız təsəvvür etmək mümkünsüzdür.

Hər bir xalçanın dəyərliliyini, bütünlükdə onun yüksək bədii-texniki xüsusiyyətləri, yəni, ecazkar naxış örtüyü ilə yanaşı, həm də onun ovqat daşıyıcısı olan gözoxşayan, cəlbedici rəngləri şərtləndirir. Təsviri və dekorativ-tətbiqi sənətin bütün növ və janrlarının təhlili göstərir ki, Azərbaycan xalqı, daha çox, gerçəkliyin ümumiləşdirilmiş bədii tutumda, nikbin ovqatlı və təsirli rənglərlə dərkinə və ifadəsinə meyillidir. Bununla yanaşı, Azərbaycan incəsənəti üçün onların dünyagörüşünü ifadə edən digər çalarlar da mövcuddur. Bu da, heç şübhəsiz, sənətkarların müraciət etdikləri mövzu ilə, ona daha təsirli rəng ovqatı vermək istəyi ilə bağlı olmuşdur. Bütün bunlar da son nəticədə rənglərin Azərbaycan incəsənətində, o cümlədən də xalçaçılıq sənətində özünəməxsus çoxqatlı rəmzi məna daşımasına səbəb olmuşdur. Əksər rənglərin müəyyən rəmzləri ifadə etməsi ənənəsinin sənət əsərlərinə daşınması uğurlu nəticələr vermişdir. Bunu, dünyanın həm görünən, həm də bəzən heç görünməyən, hətta mövcud olmayan rənglərinin xalçalarda əksi də təsdiqləyir. Tarixən təbii rənglərlə öz "xalça - arzuları"nı gerçəkləşdirən azərbaycanlı sənətkarlar vaxtaşırı nəhayətsiz fantaziyalarına tapınmaqla təbiətdə mövcud olan bitkilərin qarışığından reallıqda heç vaxt görünməyən elə rəng çalarları yaratmışlar ki, onların bəzilərinin alınma tərkibi indiyə kimi sirr olaraq qalmaqdadır. Elə bu səbəbdən də rənglərin bir-birindən fərqlənən çoxsaylı çalarları yaradılmış və xalçalarda istifadə olunmuşdur. Təbriz qrupunun bir çox məşhur nümunələrində ağ rəngin işıqlı arzuların, göy yerliyinin ulduzları "daşıyan" səmanın, yaşılın təbiətin yeniləşməsinin, bolluq və bar-bərəkətin, sarının günəş və ulduzların şərti-rəmzi təcəssümü kimi təqdimatı da bunu təsdiqləyir. Mavi çaların su və ruha rahatlıq gətirən qaynaq, qırmızının isə alov anlamında təqdimatı da xalça çeşnilərinə rəngarənglik verməklə yanaşı, onunla göz-gözə qalanlara mənəvi enerji vermək gücündə idi. Sənətkarlar rənglərin insanın psixoloji durumuna təsir gücünə inanırdılar və onların bu önəmli xüsusiyyətindən istifadə etməyə çalışırdılar.

Xalçaların bədii xüsusiyyətlərinin başlıca cəhəti onların rəng örtüyünün təzadlı



*Şəkil 61. Təbriz qrupu xalçalarından fraqmentlər*



Şəkil 62. **Xalça. Təbriz qrupu**



Şəkil 63. *Təbriz qrupu xalçalarından fraqmentlər*



olması ilə bağlı idi. Tünd yerlikdə açıq rənglər, açıq yerlikdə isə tünd rənglər işlədilir. Təbriz qrupu xalçalarına xas olan bu üsul məmulatın nikbin, gözəgəlimli koloritə malik olmasını təmin edir.

Xalçaların bədii xüsusiyyətləri konkretləşdirilsə, onda həm Təbriz, həm də Ərdəbil qrupu xalçalarının, əsasən, iki istiqamətdə inkişaf etdiyi aydın olar. Onların bədii həlli süjetli və ornamentli xalçalar kimi səciyyələnir.

Təbriz qrupuna aid xalçaların süjetli kompozisiyalarında (ovçuluq və b.) Azərbaycan xalçaçılığının çoxəsrlik ənənələrini zənginləşdirən bədii-texniki məziyyətlər kifayət qədərdir.

Təbriz qrupu xalçalarında nəbati naxışlarla yanaşı, stilizə olunmuş heyvan təsvirlərindən də ornament görkəminə salınmaqla geniş istifadə olunmuşdur. Onların qovşağının yer aldığı xalçaların naxış örtüyü isə qeyri-adi dərəcədə baxımlıdır.

Təbriz qrupu xalçalarının çoxsaylı çeşniləri arasında süjetlilərə nisbətən ornamentli xalçalar çoxluq təşkil etmişdir. Bunu həm müsəlman dünyasında canlı təsvirinə münasibətlə, həm də xalçaların döşəməyə salınması ilə əlaqələndirmək mümkündür. Digər tərəfdən milli bədii sənətkarlığın bütün sahələrində rəmzlərlə "danışmağa" üstünlük verən, elementlərin semiotikliyinə səy göstərən yerli ustaların son nəticədə xalçanı Azərbaycan xalqının "danışıq dilinə" çevirmələri qarşılığında düşüncələrini təsvirdən çox, naxışlarla ifadə etmələrini təbii saymaq olar.

Təbriz qrupuna aid ornamental xalçalar arasında "Ləçək-turunc", "Əfşan", "Xətai" və "İslimibənd"in kompozisiyalarını naxış örtüyündəki nəbati elementlərin xüsusi axıcı ritmə uyğunlaşdırılması təşkil edir.

Təbriz xalçaçılıq məktəbi mövcud olduğu bütün dövrlərdə özünün xovlu xalçaları ilə yanaşı, xovsuz nümunələri ilə də şöhrət tapmışdır.

Təbriz qrupunda toxunan belə nümunələr bütün Azərbaycan xalçaçılığı üçün səciyyəvi olan sadə və az bəzəkli kompozisiyası, nikbin rəngləri və şərtiliyi, eləcə də qabarıq stilizə gücü ilə diqqət çəkən bəzəklərə malikdir. Onların kompozisiya həllində, bir qayda olaraq, rəngli zolaqlara, dördbucaq, paxlava, çarpaz, qıvrım xətlərə və s. həndəsi fiqurlara rast gəlinir. Xalçaların naxış örtüyünü təşkil edən

müxtəlif sxematik-şərti bəzəklər, əslində, real həyatda mövcud olan əşyaları ifadə etdiyindən sənətkarların gördüklərinə ümumiləşdirilmiş –şərti bədii forma-biçim verə bilmək istedadını nümayiş etdirir. Azərbaycan xovsuz xalçalarının bəzək xüsusiyyətlərindən biri də onların xovlu xalçaların üzərindəki nəbati ornamentlər kimi, başqa bəzək ünsürləri ilə bağlı olması, hər bir ornament ünsürünün nisbətən sərbəst təsvir olunmasıdır.

Xovsuz xalçaların ən geniş yayılanı palazlardır. Palazları bütün Azərbaycanda adətən, üfüqi zolaqlarla bəzəyirlər. Təbriz palazlarının kompozisiyaları bütünlükdə həm ensiz, həm də enlizolaqlı olsalar da, daha çox enlizolaqlı nümunələrə üstünlük verilir.

Xovsuz xalçalar arasında "Vərni" naxış örtüyünü təşkil edən ornamentlərin harmonikliyi və monumentallığı ilə xüsusilə seçilir.

Təbriz kilimləri Azərbaycanın şimal bölgələrində istehsal olunanlardan texniki xüsusiyyətlərinin mürəkkəbliyinə görə fərqlənir. Bu kilimlər çox yumşaq və zərif olurlar. Kilimlərin naxışları müxtəlif rəngli arğac ipləri vasitəsilə alınır. Onun bir səciyyəvi xüsusiyyəti də hər iki üzündən istifadə olunmasıdır. Azərbaycan məişətində geniş yer tutan kilimlər döşənəcək kimi yerə salınır, dəvə və digər heyvanları bəzəyir, qapı əvəzi, pərdə, süfrə və s. kimi istifadə edilir.

Təbriz qrupuna aid "Zili"ləri başqalarından fərqləndirən xüsusiyyət onların döşəməyə salınmaması, otaqların bəzədilməsində dekorativ parça kimi istifadə olunmalarıdır. Onlar ibadət xalçası, pərdə, divar örtüyü, döşənəcək kimi məişətdə işlədilir. Təbrizdə, eləcə də Urmiyada toxunan zililərin kompozisiyalarının mərkəzi hissəsini, adətən, müxtəlif ölçülü üfüqi zolaqlar təşkil edir. Onların toxunuşunda müxtəlif xovsuz xalça texnikasından istifadə edilir. Zilinin bəzəkləri stilizə edilmiş quş və heyvan təsvirləri, rəmzlər, müxtəlif formalı həndəsi və nəbati ornamentlərdən ibarətdir.

Xovsuz xalçalar arasında cecimlər də geniş yayılıb.

Təbriz qrupu xalçalarının yaradıcıları üçün forma və ölçü məhdudiyyəti olmayıb. Belə ki, onlar eyni uğurla uzunsov, kvadrat, hətta dəyirmi formalı xalçalar yaradıblar. Onların toxuduqları xalçaların ölçüsü isə 1 kvadratmetrdən 40



*Şəkil 64. Təbriz qrupu xalçalarından fraqmentlər*



*Şəkil 65.* ***Təbriz qrupu xalçalarından fraqmentlər***

kvadratmetrə qədər olub, bəzən bundan da böyük nümunələr ərsəyə gətirilib. Təbriz qrupu xalçalarının ilmə hündürlüyü 2 millimetrdən 15 millimetrə kimi olur. İlmələrin sıxlığı 1 kvadratmetrdə 60 mindən 400 minədək olur. Sıxlığın belə yüksək olması xalçaların zərifliyi ilə yanaşı, həm də naxış örtüyündə yer alacaq ən incə elementin belə dəqiq və təsirli görüntüyə gətirilməsinə imkan vermişdir. Bu xalçaların əksəriyyəti qullabı ilmə (ona "türkbaf" da deyirlər), bəzi hallarda isə dolama ilmə (ona "farsbaf" da deyirlər) ilə toxunulur. Xalça və xalça məmulatlarının toxunulmasında müxtəlif növlü yun, pambıq və ipəkdən, eləcə də qızıl və gümüş saplardan istifadə olunur.

Təbriz qrupunu aid xalçalar 30x30, 40x40, 50x50, 60x60, 70x70, 80x80 sıxlığında toxunur. Bu xalaçalar Təbriz, Marağa, Mərənd, Miyana, Əhər, Sərab (Sarab), Heris, Bəxşayeş (Bağış), Meşkinşəhr, Ərdəbil, Xalxal, Zəncan, Məlayer, Həmədan kimi bölgələrdə toxunur.

Təbriz qrupu xalçalarının tanınma nişanlarından biri də onların şux və gözoxşayan rəng örtüyünə malik olmasıdır. Bunun üçün ilk növbədə tərkibində rəng olan təbii bitkilərdən istifadə olunardı. Təbrizin və onun yaxın məntəqələrinin çəmənliklərində boyaq materialına çevriləcək kifayət qədər xammal vardı. Rənglərin hazırlanmasında heyvan mənşəli maddələr də işlədilirdi. Sənətkarlar bəzən ayranı aşılama vasitəsi kimi tətbiq edib, yun sapların daha da parlaqlığına və şəffaflığına nail olurdular. Rəngli iplərin çalarlarının daha da zənginləşdirilməsi üçün təbii duzlardan və mineral su mənbələrindən də istifadə edilirdi. XIX əsrdə boya istehsalı artıq müstəqil əhəmiyyət kəsb etməyə başladı. Yüksək sənətkarlıq və kamillik dərəcəsinə çatmış Təbriz xalça qrupu həm Azərbaycanın özündə, həm də qonşu ölkələrdə xalçaçılığın inkişafına xüsusui təsir göstərmişdir. Təsadüfi deyil ki, Azərbaycanın digər bölgələrində, eləcə də Mərkəzi Asiya, İran, Türkiyə, Hindistan və başqa bölgə və ölkələrin xalçaçılıq sənətində Təbriz izi özünü aydın şəkildə büruzə verir.

# Xalçaçılıq sənətində ilk addımlar

## Dəzgah haqqında məlumat




Şəkil 66. Dəzgah


Şəkil 67. **Alt ox**


Şəkil 68. **Üst ox**


Şəkil 69. **Küçü**

Dəzgah 5 hissədən ibarətdir. Yan oxlar, alt, üst oxlar və kücü ağacı. Yan oxlar dəzgahın üfiqi istiqamətdə durması üçündür. Alt və üst oxlardan ərişin uzadılması prosesində istifadə edilir.

Beşinci hissə kücüdür. Kücü ağacdan və ya dəmirdən olur. Kücü xalçada ərişlərin çarpazlaşması prosesinə xidmət edir.

5 hissədən ibarət olan xalça dəzgahı palaz, kilim, sumax və xovlu xalça məmulatlarının toxunması üçün istifadə edilir. Dəzgah 90 dərəcə bucaq altında və toxunan məmulatın ölçüsü əsasında qurulur. Dəzgaha uzadılan xalça və xalça məmulatlarının ərişi yun, pambıq və yaxud ipək olur.



Şəkil 70. **Hazır dəzgah**

# Alətlər haqqında məlumat



*Şəkil 71.* ***Taxta həvə***



*Şəkil 72.* ***Dəmir həvə***



*Şəkil 73.* ***Qayçı***



*Şəkil 75.* ***Kirkit***





*Şəkil 74.* ***Xalçanın xovunu qırxmaq üçün qayçılar***



*Şəkil 76.* ***Taxta kirkit***



*Şəkil 77.* ***Qarmaqlı sökmə bıçağı***



*Şəkil 78.* ***İlmə vurmaq üçün qarmaqlı bıçaq***

Toxunma prosesində işdədilən alətlər bunlardır:

1. *Çoxdişli həvə (həm ağacdan, həm dəmirdən olur)*
2. *Qayçı*
3. *Qarmaqlı bıçaq*
4. *Kirkit (həm ağacdan, həm dəmirdən olur)*
5. *Qarmaqlı sökmə bıçağı*

Keçmişdə çoxdişli həvə ağacdan hazırlanır və istifadə olunurdu. Həvə toxuma zamanı ərqacın döyülməsi üçün işlədilir. Bıçaq ilməsalma və ilməkəsmə prosesində istifadə olunur. Qayçı isə xalçada xovun qırxılması üçün işlədilir . Sökmə bıçağı vasitəsilə səhv vurulmuş ilmə çıxarılır və yenisi vurulur.



Şəkil 79. Alətlər və ip yumaqları



Şəkil 80. Qoyunun qırxılması



Şəkil 81. Yun



Şəkil 82. *Barama*



Şəkil 83. *İpək iplər*



Şəkil 84. *Pambıq kolu*



Şəkil 85. *Pambıq qozası*



Şəkil 86. *Tarlada pambıq*



*Şəkil 87. Yunun yuyulması*



*Şəkil 88. Yunun daranması*







*Şəkil 89. Yunun qurudulması*

## İplər haqqında məlumat

Xalça və xalça məmulatları yun, pambıq və ipək iplərdən toxunur. Azərbaycanda heyvandarlıq inkişaf etdiyinə görə yun iplərdən daha çox istifadə olunur. Yun iplər qoyun, dəvə və keçi yunundan hazırlanır. Toxunma prosesi üçün hazırlanan yunlar yuyulur, qurudulur və sonra yun darağında daranır və cəhrədə əyirilir. Əyirilmiş iplər əriş və xovsuz xalça üçün tovlanır, xovlu xalçaların üz ipi üçün tovludan fərqli olaraq yumaq əyirilir. Müəyyən olunmuş xovlu və ya xovsuz məmulatın ipi yığılır və boyadılması üçün verilir.



Şəkil 90. *Yun ipin əyirilməsi*



Şəkil 91. *Əlçim*





Şəkil 92. *Yun ipin kələfi*



Şəkil 93. İplərin boyanması



Şəkil 94. İplərin sıxılması



*Şəkil 95. **Təbii şəkildə ipin yuyulması, boyanması və boyanmış ipin yenidən yuyulması***





Şəkil 96. **İpin yumaqlanması**



Şəkil 97. **Hazır rəngli iplər**




*Şəkil 98. Boyanmış yun iplər*

## İplərin hazırlanması və boyanması

Təyin olunmuş ölçüyə əsasən xalçanın toxunmasında istifadə olunacaq iplər boyanır. Xalçanın toxunması zamanı əsasən 7 rəngdən istifadə olunur. Bunlar ağ, qırmızı, sürməyi, mavi (abı), yaşıl, qara, sarıdır. Boyanmış hazır iplər yumaqlanır. Ərişçəkmə prosesindən sonra yumaqlar dəzgahın üzərindən asılır.




*Şəkil 99.* ***Yumaqlar dəzgahda***



Şəkil 100. **Boyanmış ipək iplər**

## Rənglər haqqında məlumat

Türk xalqlarının ilk xalça nümunələrindən başlayaraq indiyə qədər istifadə etdikləri beş əsas rəng bunlardır: qara, sarı, qırmızı, ağ və yaşıl. Xalçalardakı rənglər türkdilli xalqların coğrafi ərazisinə, onların həyat tərzinə və inanclarına görə müəyyən məna daşıyır.

Qara rəng matəm və hüznü bildirir. Sarı rəng dini məna daşıyıb, günəş və atəşi ifadə edir. Qırmızı rəng türk xalçalarının əsas rəngi olub, gücü, əsil-nəcabəti, həyatı və eşqi əks etdirir. Ağ rəng bəzən sakitliyi, sükutu, bəzən də kədəri göstərir.

Bu əsas rənglərlə birgə xalçalarda xeyli sayda (10, 15, 20) rəng çalarlarından da (sürməyi, abı, mavi, zoğalı, innabı, çəhrayı, al-qırmızı, boz, palıdı, qəhvəyi, püstəyi, bənövşəyi və s.) istifadə edilir.



Şəkil 101. **Boyanmış iplərin qurudulma prosesi**





Şəkil 102. Gənc xalçaçı




Şəkil 103.
*Ərişin dəhnə ağacına möhkəm düyünlənməsi*



Şəkil 104. *Ərişin üst oxa tərəf ötürülməsi*



Şəkil 105.
*Ərişin alt oxun arxasından qabağa tərəf verilməsi*



Şəkil 106.
*Alt oxun arxasından gətirilmiş ərişin dəhnə ağacına keçirilməsi*





Şəkil 107.
*Ərişlərin yan-yana yığılması, tarımlaşdırılması və eyni qaydada davam etdirilməsi*




Şəkil 108. Ərişçəkmə

## Ərişçəkmə prosesi

Dəzgah qurulub, ölçü müəyyən olunandan sonra ərişçəkmə prosesi başlanır. Ərişçəkmə prosesi xalçanın enində müəyyən olunmuş sıxlığa əsasən uzadılır. Ərişçəkmə mərhələsində kiçik ölçülü xalçalarda 2-3, böyük ölçülü xalçalarda 10-12 nəfər iştirak edə bilər. Xalça məmulatının uzadılması dəhnə ağacının köməyi ilə başlanır. Ərişuzatmada usta dəhnə ağacının üstünə yığılan ərişləri eyni səviyədə və eyni gücdə toparlayıb, müəyyən olunmuş sıxlığa görə 10 santimetrə düzür. Ərişçəkmə prosesi bitəndən sonra əsas işlərdən biri kücügötürmə mərhələsidir.



Şəkil 109. Ərişçəkmə



Şəkil 110. **Kücü ağacının bir başından o biri başına möhkəm eşilmiş ipin bağlanması**



Şəkil 111. **Kücü ipinin düyünlənməsi**



Şəkil 112. **Sol tərəfdən birinci ərişin tutulması**





Şəkil 113. **Kücü ipinin onun sağından keçirilib altından - sol tərəfindən alınması və düyünlənməsi**



Şəkil 114.
**Paralelləşdirmə və çarpazlaşdırılma**



Şəkil 115.
**Kücüstü ağacın ərişlər arasından görünüşü**

## Sadə kücügötürmə

Kücügötürmə iki cür olur: sadə və yarımmexanikləşdirilmiş. El arasında yarımmexanikləşdirilmiş kücüyə "yetim kücü" də deyilir. Kücüdən toxuma prosesindəərişlərin çarpazlaşması, alt və üst arğacların döyülməsi üçün istifadə olunur.

Kücü tutulduqdan sonra dəhnədöymə prosesi başlanır.



Şəkil 116. *Küçügötürmə*



Şəkil 117. Möhkəm eşilmiş və möhkəm dartılmış ipin üfüqi vəziyyətdə yanlıqlara bağlanması



Şəkil 118. Bir çin sünbül keçirilməsi





Şəkil 119. Sünbülün ardıcıllıqla vurulması



Şəkil 120. Sünbülün həvə ilə döyülməsi və tarazlaşdırılması



Şəkil 121. Sünbülün hazır forması



*Şəkil 122. **Qırmızı arğacın ərişlərin arası ilə soldan sağa keçirilməsi***



*Şəkil 123. Qırmızı arğacın aşağı -**sünbülə tərəf çəkilməsi***



*Şəkil 124. **Həvə ilə otuzdurulması***

## Dəhnədöymə

Əsas texnoloji proseslərdən biri də dəhnədöymə prosesi, yəni xalça və palazın başlanğıcıdır. Buna ağıztutma da deyilir. Xalçanın eni boyunca olan uzun ip yan oxa bağlanır və çarpazlaşma əsasında ərişlərin arasından keçirilərək tarım çəkilib 2 yan oxa bağlanır. Bundan sonra arğaclar vasitəsilə dəhnə döyülür. Dəhnə palaz texnikası ilə sadə keçirtmə üsulu ilə döyülür. Dəhnə ipi bağlandıqdan sonra sünbül və ya sumax toxunur. Dəhnə 1, 1,5-dən 2 sm-dək hündürlükdə olur. Bundan da sonra ilməsalma prosesi başlanır.



*Şəkil 125. **Sadə keçirtmə üsulu ilə dəhnənin döyülmüş I cərgəsinin görünüşü***



Şəkil 126. **Küçüüstü ağacı qaldırdıqdan sonra, dəhnə ipinin sağ əldən sol ələ verilməsi**



Şəkil 127. **Sol əl ilə dəhnə ipinin dartılması**



Şəkil 128. **Sağ əldə həvə, sol əldə isə dəhnə ipinin tutulması**



Şəkil 129. **Palaz texnologiyası ilə döyülmüş dəhnə forması**

## Dəhnəüstü sünbülün vurulması




Şəkil 130. *Dəhnəüstü sünbülün ipinin keçirilməsi*



Şəkil 131. *Dəhnəüstü sünbülün həvə ilə otuzdurulması*



Şəkil 132. *Toxunuş prosesi üçün hazır dəhnə*



Şəkil 133. Qarmaqlı bıçaq ilə ilməvurma prosesinin başlanması. Bıçaqla üst ərişin götürülməsi



Şəkil 134. İpin ucunun sol tərəfdən sağa verilməsi



Şəkil 135. İlmə salmaq üçün ipin ucunun hazır saxlanması





Şəkil 136. Bıçağın ipin iki ucu arasına keçirilməsi



Şəkil 137. İpin iki ərişin arasından bıçağın qarmağına keçirilməsi



Şəkil 138. İlmə düyününün iki əriş arasından çıxarılması

## İlməsalma

Azərbaycan xalçasında 2 ərişə 1 ilmə salınır. İlmə salınarkən yun ip 2 ərişə dolanıb 1 növ düyünlənir, həm də ip öz ucları ilə xalçanın xovunu yaradır. İlmənin düyün hissəsi və onun xov yaradan 2 ucu birlikdə ilmə uzunluğunu əmələ gətirir. İlmə uzunluğu bütün xalçalar üçün eyni ölçüdə olmur. O, xalçanın hansı qrupa məxsus olmasından və hansı sıxlıqda toxunmasından asılıdır. Məsələn Quba, Şirvan, Bakı tipli xalçalara nisbətən Gəncə, Qazax-Borçalı qrupunda ilmə uzunluğunun norması daha uzun olur. Çünki bu qruplarda xov daha qalın olur. İlmə 2 hissədən ibarətdir: düyün hissə və qanadlardan.



*Şəkil 139. İlmənin hazır dəhnə üstünə otuzdurulması*



*Şəkil 140. Hazır ilmə*



*Şəkil 141. Hazır ilmənin qarmaqlı bıçaq ilə kəsilməsi*



*Şəkil 142. Bir neçə vurulmuş ilmənin görünüşü*



*Şəkil 143. Hazır ilmə (bir çin) düzümü*

## Vurulmuş çindən sonra alt arğacın keçirilməsi



Şəkil 144. Alt arğacın ərişlərin arasından sağdan-sola ötürülməsi



Şəkil 145. Alt arğacın götürülməsi



Şəkil 146. Alt arğacın tarım vəziyyətə gətirilməsi





Şəkil 147. Alt arğacın həvə ilə döyülməsi



Şəkil 148. Alt arğacın hazır ilmələrin (çinin, cərgənin) üzərinə otuzdurulması



Şəkil 149. Alt arğacın hazır görünüşü



Şəkil 150. **Üst arğacın sol əldən sağ ələ ərişlər arasından ötürülməsi**



Şəkil 151. **Üst arğacın həvə ilə tökə (boş) döyülməsi**



Şəkil 152. **Üst arğacın döyülməsi**





Şəkil 153. **Alt və üst arğacın döyülmüş hazır vəziyyəti**



Şəkil 154. **İlmələrin tarazlaşdırılması**

## Alt və üst arğacların bölgələrə görə tarım və tökə döyülməsi

Alt və üst arğacların tarım və ya tökə (boş) döyülməsi hər bölgə üzrə dəyişir. Arğaclar yun, pambıq və ipək olur. Sıxlığı çox olan xalçalarda alt arğac qalın, üst arğac isə nazik olur. Sıxlığı az olan xalçaların alt və üst arğacı eyni tarımlıqla döyülür. Bu da 1 ilmənin arxa hissədə 2 ilmə kimi görünməsinə səbəb olur.



*Şəkil 155.* ***Bir cüt ərişə qıraq ipinin dolanması***



*Şəkil 156.* ***Qıraq ipinin bir cüt ərişə bir neçə dəfə dolanması***



*Şəkil 157.* ***Qıraq ipinin düyünlənməsi***

## Qıraqbükmə və dəhnə

Dəhnədən sonra xalçada ilməvurma prosesi başlanır. Bir çin (cərgə) toxunduqdan sonra arğac döyülür, daha sonra isə xalçanın hər iki tərəfində ilmə vurulmamış boş 1 cüt əriş saxlanılır. Bu ərişlər qıraqbükmə üçün lazımdır. Həmin ərişlərə dolanan ipə qıraqbükmə ipi deyilir. Qıraqbükmə iki cür olur: "səkkizvari" və yaxud sadə dolama. Qıraq dolama xalçanın möhkəmliyi və ilmənin tökülməməsi üçün vacibdir.

# Xovun qırxılma prosesi



Şəkil 158. **Xovun qayçılanma prosesinin başlanması**



Şəkil 159. **Sol əl ilə qayçının sıxılması**



Şəkil 160. **Sağ və sol əl ilə qayçının işlənməsi**





Şəkil 161. **Hazır qayçılanmış çinin görüntüsü**




*Şəkil 162. **Sıxlığına görə ərişin görüntüsü***




*Şəkil 163. Sıxlıq və yatımına görə xalçanın görüntüsü*

## Sıxlıq və yatım



Sıxlıq xalçanın özündə və çeşnisində ilmələrin və çinlərin 10 sm-də yerləşməsinə deyilir. Məsələn, çeşninin enində 10 sm-də 35 ilmənin yerləşməsi sıxlıq, uzununda 10 sm-də 50 çinin yerləşməsi isə yatımı əmələ gətirir. Deməli bu xalçanın sıxlığı 10 sm-də 35-ə uzadılıb və 50-yə yatırılmışdır. Sıxlıq 2 əsas hissədən: en və boydan (uzunundan) ibarət olur. En sıxlığına əriş sıxlığı, boy sıxlığına isə arğac və yaxud yatım sıxlığı deyilir. En sıxlığı əriş uzadılarkən, boy sıxlığı isə arğaclar döyülərkən yaranır.



# Xalçaçılığın texnologiyası

## Haşiyə haqqında məlumat.
## Ana və bala haşiyə, siçan dişi və sular.

Xalçanın ara sahəsini haşiyələr əhatə edir. Haşiyələr xalçanın ölçüsündən asılı olur. Böyük ölçülü xalçaların ana və bala haşiyələri enli və çox sayda, kiçik ölçülü xalçaların haşiyələri nisbətən kiçik və az sayda ola bilər.

Azərbaycan xalçalarının haşiyə qurşaqları bir neçə müxtəlif enli və ensiz zolaqlardan təşkil olunmuşdur. Xalçanın haşiyə qurşağını təşkil edən zolaqlar kompozisiyada tutduqları mövqeyinə və eninə görə aşağıdakı adları daşıyır:

a) "Sular". Azərbaycan xalçaları arasında çox geniş yayilmış "Su" termini haşiyə hissələrini bir-birindən ayıran düz xətləri ifadə edir.

b) "Siçan dişi"lər haşiyə ornamentlərini bir-birindən ayırmaq üçün xalq ustaları tərəfindən tətbiq edilmişdir.

c) "Mədaxil"lərin ölçüsü siçan dişilərdən 2-3 dəfə artıq olur.

d) "Zəncirə"lər "mədaxil"dən enli "bala haşiyə"lərdən incə və ensiz olur.




*Şəkil 165. Xalçanın quruluşu*

## Çeşninin çəkilmə prosesi

Xalçaçılıq mədəniyyətinin inkişafı, xüsusilə klassik kompozisiyaların kağız üzərinə gətirilməsi damalı kağızların meydana çıxmasına tələbat yaratmışdır. Klassik kompozisiyaların kağız üstünə köçürülməsi, damalı kağızlardan istifadə edilməsi xalça rəssamlığını peşəkarlıq və kütləvilik səviyyəsinə qaldırmaq üçün geniş imkan açmışdır. Çeşninin hazırlanması üçün toxunulacaq xalçanın sıxlıq və ilmə yatımı vacibdir. Toxunulacaq xalçanın enində olan ilmələrin, boyundakı çinlərin sayı müəyyənləşdirilir və bu iki alınan hesabın əsasında çeşni çəkilir. Çeşnilər qurulan kompozisiyaya əsasən 1/4, 1/2 və bütöv şəkildə çəkilə bilər. Damalı kağızda toxunulacaq xalçanın kompozisiyası tam dəqiqliyi ilə rənglənir. Xalçanı toxumaq üçün toxucuya ilmə sıxlığı tam hesablanmış və rənglənmiş çeşni verilir.



*Şəkil 166. Çeşnilərin müzakirəsi*



Şəkil 167. *Müxtəlif çeşnilər*



*Şəkil 168.* ***Xalça. "Ləçək-turunc". Təbriz qrupu***



*Şəkil 169.*
***Xalça "Bağçada güllər". Naxçıvan qrupu***

## Xalçada həndəsi və nəbatı elementlər.

Xalçalarda həndəsi və nəbati elementlərdən istifadə olunur. Azərbaycan xalçalarında həndəsi elementlər daha cox işlədilir. Azərbaycanın Təbriz qrupuna aid və müasir xalçalarında həmçinin, nəbati elementli kompozisiyalar da tərtib edilir və toxunur.



Şəkil 170. **Xalça. İrəvan qrupu**



Şəkil 171. **Xalça. İrəvan qrupu**





Şəkil 172. *Xalçanın "kəsilmə" prosesi*



## Hazır xalçanın "kəsilməsi" və sonrakı proseslər

Xalçanın toxunması prosesi başa çatdıqdan sonra o "kəsilərək" xanadan götürülür. Bundan sonra kəsilmiş xalça dolabda çırpılır və yuyulur. Xalçanın yuyulması iki çür həyata keçirilir. Xalça həm xüsusi şəraitdə, həm də təbii şəkildə - çaylarda yuyula bilər. Yuyulmuş xalça sıxılır və qurudulur. Xalça quruduluqdan sonra onun "qırxılması" və xovun tarazlaşdırılması prosesi gedir. Xovu tarazlaşdırılmış xalça dartılır və ütülənir. Növbə xalça saçağına çatır; saçağa iplə dövrə vurulur, daranır və xalça üzərindəki artıq xovlar qayçı ilə götürülür. Nəhayət son məqamda xalça ütütlənir və satış üçün hazır vəziyyətə gətirilir.



Şəkil 173. *"Kəsilmiş" xalçanın dolabda çırpılması*



*Şəkil 174. Xalçanın xüsusi şəraitdə və çayda yuyulması*







Şəkil 175. **Xalçanın sıxılması**



Şəkil 176. **Xalçanın qurudulması**





Şəkil 86. Xalçanın qırxılması



Şəkil 177. **Xovun tarazlaşdırılması**




Şəkil 178. **Xalçanın dartılması**




Şəkil 179. **Xalçanın ütülənməsi**



Şəkil 180. **Xalça saçağına "dövrənin" vurulması**





Şəkil 181. **Xalça saçağının daranması**





Şəkil 182. **Xalça saçağının tarazlaşdırılması**





Şəkil 183. **Xalçanın emalatxana şəraitində ütülənməsi**



Şəkil 184. "Azər-İlmə"nin "Sehrli ilmələr" qalereyasından



# Biblioqrafiya


## Azərbaycan dilində

Əfəndiyev R. Azərbaycan el sənəti. Bakı, 1971
Əfəndiyev R. Azərbaycan dekorativ - tətbiqi sənətləri (orta əsrlər). Bakı, 1976
Əfəndiyev R. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. Bakı, 1980
Əliyeva K., İbrahimov E. Lətif Kərimov: həyat və yaradıcılığı. Bakı, 2007 (həmçinin rus və ingilis dillərində)
Kərimov K., Əfəndiyev R., Rzayev N., Həbibov N. Azərbaycan incəsənəti. Bakı, 1992
Kərimov L. Azərbaycan xalçalarının naxış elementlərindən nümunələr. Bakı, 1983
Muradov V. Azərbaycan xalçaları. Bakı, 2008
Muradov V. Azərbaycan xalçaları. Qarabağ qrupu. Bakı, 2010 (Azərbaycan və ingilis dillərində).
Muradov V. Azərbaycan xalçaları. Qarabağ qrupu. Bakı, 2010 (Azərbaycan və rus dillərində).
Muradov V. Azərbaycan xalçaları Qarabağ qrupu. Bakı, 2011.
Muradov V. Azərbaycan xalçaları İrəvan qrupu. Bakı, 2011.
Muradov V. Azərbaycan xalçaları Təbriz qrupu. Bakı, 2011.
Muradov V. Azərbaycan xalçaları Şirvan qrupu. Bakı, 2011.
Muradov V. Azərbaycan xalçaları Bakı qrupu. Bakı, 2012.
Muradov V. Azərbaycan xalçaları Naxçıvan qrupu. Bakı, 2012.
Muradov V. Azərbaycan xalçaları Qazax-Borçalı qrupu. Bakı, 2012.
Muradov V. Azərbaycan xalçaları Gəncə qrupu. Bakı, 2012.
Muradov V. Azərbaycan xalçaları Quba qrupu. Bakı, 2012.
Müciri C. Azərbaycan xalçaçılığı. Bakı, 1977

## Türk dilində

Erdman Kurt. 15. Asır türk halısı. Türkçesi: H.Taner
Nekrasova N.P., Kınayeva K.G. Moskova Şark sanatları devlet müzesi türk, azeri ve türkmen seccadeleri. Türkçeye Çeviren: Cem Oğuz. Ankara, 1997

## İngilis dilində

Azerbaijan Republic. Masical Knots // Hali. Carpet, Textile and Islamic art. 2007, January-february, issue 150
Azerbaijan Republic. "Azer-ilme" Co. LTD // Hali. 2007, spring, issue 151

Azerbaijan. Nakhichevan Carpets // Hali. 2007, autumn, issue 150
Bennet I. Oriental rugs. England, 1981
Bode von W., Kühnel E. Antique Rugs From the Near East. Great Britain, 1984 (?)
Böhmer H. Koekboya Natural Dyes and Textiles. Ganderkesee, 2002
Burns. D. J. The Caucasus Traditions in Weaving. Tokyo, 1987
Charles Grant Ellis. Early Caucasian Rugs. The textile museum fiftieth anniversary. 1925-1975. Washington, 2008, 112 p.
Franses Jack. The Ardebil carpet. Heintex, April, 1984. p.60-68
Hazledine Tony. On the Road to Zakatala // Hali. 1994. December - 1995, January, issue 78, p.88-95
James D.Burus. The Caucasus Traditions in Weaving. Seattle: Court Street Press, 1987, p.68
Kaffel R. Caucasian Prayer Rugs. Belgium, 1998.
Kopachkova. R. Fragment of a Safavid Kilim in Prague//Oriental Carpet and Textile Studies, v.3. №2. London, 1989. p.117-119
Mc.Millan. Islamic Carpets. New York, 1965. p. 152
Muradov V. Azerbaijani Carpets. Karabagh group. Baku, 2010
Muradov V. Azerbaijani Carpets. Iravan group. Baku, 2011
Muradov V. Azerbaijani Carpets. Tabriz group. Baku, 2011
Muradov V. Azerbaijani Carpets. Shirvan group. Baku, 2011
Muradov V. Azerbaijani Carpets. Baku group. Baku, 2012
Muradov V. Azerbaijani Carpets. Nakhchivan group. Baku, 2012
Muradov V. Azerbaijani Carpets. Gazakh-Borchali group. Baku, 2012
Muradov V. Azerbaijani Carpets. Ganja group. Baku, 2012
Muradov V. Azerbaijani Carpets. Guba group. Baku, 2012
Ölçer N. Museum of Turkish and İslamic arts kilims. İstanbul, 1989
Schurmann U. Caucasian rugs. Poolesville, Maryland, USA, 1990
Shirvan"Arjiman carpet from Azerbaijan // Hali. 2008, spring. Issue Recrea ted by "Azer-ilme" LTD (The "Sheih Safi" Carpet has been for the first time woven in Azerbaijan // Hali. 2008, summer, issue 156
Soursrafil. S. A Survey of Persian carpets. Tehran, 1986. p.279

## Rus dilində

Аббасов А.А. Производство и торговля азербайджанскими коврами в конце XIX- нач. XX века. АКД. Тбилиси, 1980
Абдуллаева Н.А. Ковровое искусство Азербайджана. Баку, 1971

Адамов А.К. Советские ковры и их экспорт. М. - Л., 1934

Алиева А. С. Ворсовые ковры Азербайджана XIX - начала XX века. Баку, 1987

Алиева А.С. Нахичеванские ковры. Баку, 1988

Алиева К.М. Безворсовые ковры Азербайджана. Баку, 1988

Алиева К.М. Тебризская ковровая школа XVI- XVII вв. Баку, 1999

Воронков Н.В. Крашение ковровой пряжи. М., 1944

Гогель Ф.В. Ковры. М., 1950

Зедгенидзе Я. Производство ковров и паласов в городе Шуше Елизаветпольской губернии// СМОМПК., вып. 11, Тифлис, 1891

Зуммер В.М. Современные кубинские ковры// Изв. Об- ва обслед. И изучения Азербайджана. 1926, № 3

Зуммер В.М. Вехи развития искусства Азербайджана// Художественная культура Советского Востока. М.- Л.,1931, С. 91- 105

Исаев М.Д. Ковровое производство Закавказья. М., 1932

Кара- Мурза И.М. Ковровый промысел в Кубинском уезде Бакинской губернии// Изв. Кавказского кустарного комитета. Тифлис, 1902

Керимов Л. Азербайджанский ковер. В трех тт. т.I. Баку - Л., 1961; т.II. Баку, 1983; т.III. Баку, 1983

Керимов Л. Азербайджанские ковры в музее Виктории и Альберта в Лондоне. Баку, 1983

Керимов Л. Искусство ковроделия// Мат. Межд. Симпозиума по искусстве восточных ковров. Баку, 1988, с.155-165

Ковры Азербайджанской ССР. Альбом. Баку, 1951

Курбанова Ч. Шелковые ковры Азербайджана в XVI- XVII вв.// Мат. Межд. Симпозиума по искусстве восточных ковров. Баку, 1988,с. 172-177

Левин Л.М. Ковры и ковровые изделия. М., 1960

Левин Л.М., Леошкевич И.С., Саруханов С.Е. Художественные ковры СССР. М., 1975

Материалы Международного симпозиума по искусству восточных ковров. Баку, 1988

Миллер А.А. Ковровые изделия Востока // Выставка этнографического отдела русского музея. Л., 1924

Мурадов В. Азербайджанские ковры. Карабахская группа. Баку, 2010

Мурадов В. Азербайджанские ковры. Карабахская группа. Баку, 2011

Мурадов В. Азербайджанские ковры. Иреванская группа. Баку, 2011.

Мурадов В. Азербайджанские ковры. Ширванская группа. Баку, 2011.

Мурадов В. Азербайджанские ковры. Тебризская группа. Баку, 2011.

Мурадов В. Азербайджанские ковры. Бакинская группа. Баку, 2012.

Мурадов В. Азербайджанские ковры. Гянджинская группа. Баку, 2012.
Мурадов В. Азербайджанские ковры. Нахчыванская группа. Баку, 2012.
Мурадов В. Азербайджанские ковры. Губинская группа. Баку, 2012.
Мурадов В. Азербайджанские ковры. Газахско-Борчалинская группа. Баку, 2012.
Мюджири Дж. Технологические приемы азербайджанского ковроделия. Баку, 1983
Орлов Н.М. Горные богатства и ковры. Экспортные ковры Закавказья. Ч.II. Тифлис, 1925 Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа. М., 1913
Руденко С. Древнейшие в мире художественные ковры и ткани из олоденелых курганов Горного Алтая. М., 1968
Тагиева Р.С. Сюжетные ковры Азербайджана. Баку, 1988
Тагиева Р.С. Ковровые образы Низами. Баку, 1991
Тагиева Р. Искусство азербайджанского ковроткачества в контексте межцивилизационного диалога // Кавказ и глобализация. 2009, т.3. вып. 2-3, с.153-169
Тревер К.В. Очерки по истории культуры древней Армении (II в. до н.э. - IV в н.э.). М. - Л., 1953
Тюляев С. Выставка «Азербайджанский ковер". Изд. Музея восточных культур. М., 1929
Хатисов К. Кустарные промыслы Закавказского края // Отчеты и исследования по кустарной промышленности России. 1904, т.2
Хелимский Г.Х. О кустарной промышленности Закавказья. М., 1910
Экспортные товары Закавказья и условия их производства и добывания. Тифлис, 1925, чч. 1- 2



Şəkil 185. Xalça. "Çələbi". Qarabağ qrupu

# Əlavələr

# Azərbaycanın xalça qruplarına dair çeşnilər



| | |
|---|---|
| Xalçanın ölçüsü: | 80 x110 sm. |
| Əriş: | Yun 6 qat. |
| Arğac: | Yun 3 qat qırmızı tək arğac. |
| Dəhnə: | Qırmızı yun. |
| Üz ipi: | Yun. |
| Toxunma üsulu: | Sadə keçirtmə, 3 qat mürəkkəb dolama. |
| Sıxlığı: | 40x75 sm. |
| Kənar dolama: | Yun dolama 2 ərişə. |
| Rənglər: | 7 rəng: innabı-qırmızı, sarı, yaşıl, sürməyi, ağ, mavi, qara. |
| Alətlər: | Çoxdişli kəvə. |

*Əl ilə çəkilmiş çeşni.*
*Rəssam: Ayturan İbrahimova.*

*Mənbə: Muradov V. Azərbaycan xalçaları. Bakı qrupu. Bakı 2011, s. 64-65*

Bakı xalçaçılıq məktəbi özündə Novxanı, Fatmayi, Nardaran, Bülbülə, Mərdəkan kəndlərini cəmləşdirir. Onlar parçanın yumşaqlığı, intensiv rəngləri, yüksək rəssamlıq zövqü və işlənmənin füsunkarlığı ilə fərqlənir. Bu məktəbdə 10 kompozisiya cəmlənib. Bakı xalçalarının kompozisiyasında medalyonlara tez-tez rast gəlinir. Bakı məktəbi Abşerondan kənarda yerləşən Xızı rayonu və ona daxil olan Qədi, Hil, Keş, Fındığan və s. xalça məntəqələrini də əhatə edir. Xalçaların əksəriyyəti toxunduğu kəndin adını daşıyır. Bakı qrupuna "Xilə-buta", "Xilə-əfşan", "Novxanı", "Suraxanı", "Qala", "Bakı", "Görədil", "Fatmayı", "Fındığan", "Qədi" və s. çeşidlər daxildir.

"Bakı xalçaları"nın ölçüsü təqribən 100x150 sm-dən 110x180 sm-ə qədər dəyişir. Bəzən iki göllü dördbucaqlı kvadrat xalçalara da rast gəlinir. İlmələrin sıxlığı: bir kvadrat dm-də 38x38 ilmədən 45x45 ilməyə qədər yerləşir. Beləliklə bir kvadrat metrdə 145 min ilmədən 200 min ilməyə qədər düyün vardır. "Bakı xalçaları"nda xov hündürlüyü 5 mm-dən 7 mm-ə qədərdir.

Bakı xalça məktəbində xovlu xalçalarla yanaşı "Zili", "Kilim" kimi xovsuz xalça növləri də toxunur. "Zili" xovsuz xalça növünün ən maraqlı nümunələrindən biridir. Bərdə, Cəbrayıl, Naxçıvan, Şirvan, Abşeron, Xızı, Təbriz, Qazax və digər rayonlarda istehsal olunan zililər XVIII əsr – XIX əsrin əvvəllərində Avropa və Rusiyaya ixrac olunurdu. Qədim zamanlarda zili köçmə təsərrüfatla məşğul olan əhalinin məişətində geniş istifadə olunurdu, hal – hazırda isə yaşayış yerlərinin bəzəyi hesab olunur.

Kompoziyasına və naxışlarına görə Azərbaycanın "Zili" xovsuz xalçaları çox müxtəlifdir. Bu xalçalar arəsmin plastiki çevikliyi və emosional ifadəsəciyyəvidir. Ornament bəzəklərinin səciyyəvi xüsusiyyəti iri işarə elementlərinin böyük romb, cüt buynuz və müxtəlif üslublaşdırılmış element qismində təsviridir.

Təqdim olunan "Zili" xovsuz xalçası quşların təsiredici üslublaşdırılmış təsvirləri, "buta" elementi və s. ilə zəngindir. Zilinin ara sahəsi açıq-qırmızı və sürməyi rənglərlə tərtib edilib. Xalça kvadratlarla bərabər ölçülərə bölünmüşdür. Kvadratların içərisində stilizə olunmuş "tovuz quş"ları yandan təsvir olunmuşlar. "Tovuz quşu" gözəllik rəmzi kimi xalçalarda tez-tez təsvir olunur. Zili xalçalarının ənənəvi bəzək elementlərindən biri də "ağac" təsvirləridir. Ağaclar "Zili"də ağ və qırmızı rənglərlə işlənmişdir. Doldurucu element kimi kiçik quşlar, "damğa"lar, "alma", rombvari elementlərdən istifadə edilmişdir. Kvadratlar arasında "qarmaq" və səkkizguşəli ulduzlardan ibarət haşiyələr verilmişdir.

Zilinin ana haşiyəsi əvəzinə böyük ölçülü "buta" elementləri yerləşdirilmişdir. Butaların içərisində ağac təsvir edilmişdir. Butanın "Zili"də təsviri təsadüfi deyil. Bəzən "buta"nın tovuz quşunun lələklərindən formalaşdığını da deyirlər. Burada eyni mənanı verən müxtəlif formalı elementlər çox gözəl uyum içində verilmişdir.



Zili. Yun. Xovsuz. 1996-cı il. Bakı qrupu.
Azərbaycan. Şəxsi kolleksiyadan.



*Əl ilə çəkilmiş çeşni.*
*Rəssam: Ayturan İbrahimova.*

| | |
|---|---|
| Xalçanın ölçüsü: | 80x110 sm. |
| Əriş: | Yun 5 qat. |
| Arğac: | Qırmızı yun 2 qat tovlu. |
| Dəhnə: | Qırmızı yun. |
| Üz ipi: | Yun. |
| Toxunma üsulu: | 2 qat tovlu mürəkkəb dolama |
| Sıxlığı: | 35x60 sm. |
| Kənar dolama: | Qırmızı yun, 8-vari 2 ilməyə. |
| Rənglər: | 8 rəng: al-qırmızı, qızılı-palıdı-sarı, yaşıl, sürməyi, ağ, açıq- mavi, qara. |
| Alətlər: | Çoxdişli həvə. |

*Mənbə: Ulrich Schurmann Caucasian Rugs, Poolesville, Maryland, USA, 1990.*

Azərbaycanın Quba bölgəsi özünün bənzərsiz xalçaları ilə tanınmışdır. Qubanın sıldırım qayaları, coşqun çayları, təbiətin saysız rəngləri, onun əl sənətinə, o cümlədən xalı-xalçasına misilsiz bir əlvanlıq verib. Təsadüfi deyildir ki, Quba xalçaçıları təbiətin bu zənginliyini bacardıqları kimi xalça üzərinə köçürüblər.

XII əsrdən başlayaraq Quba xalçaları müxtəlif yollarla Avropa ölkələrinə aparılıb və öz doğma yurdundan ayrı düşüblər. Dünyanın ən böyük muzeylərində nadir eksponatlar sırasında Quba xalçaları xüsusi yer tutur.

Qubanın ayrı-ayrı məntəqələrində xovlu xalçalarla yanaşı, xovsuz xalçalar da toxunmuşdur. Xovsuz texnika ilə toxunan sumaxlar Qubaya dünya şöhrəti gətirmişdir. Sumax xovsuz xalçanın ən geniş yayılmış növlərindən biridir. Mürəkkəb dolama texnikası ilə toxunan sumax bədii xüsusiyyətlərinə görə şəddə, vərni və zilidən fərqlidir. Ümumiyyətlə, sumağın sərbəst bir çeşnisi yoxdur. Əgər keçmişdə sumax sərbəst çeşniyə malik olmuşsa da, xovlu xalçaların inkişafı ilə əlaqədar olaraq bu çeşnilər sıradan çıxmışdır. Sumağın kompozisiyası və onun ayrı-ayrı elementləri əsasən xovlu xalçaların və xüsusən, Quba-Şirvan növlü xalçaların ornament kompozisiyasının eynidir. Lakin xovlu xalçalarda görünən kvadrat və uzunsov formalı elementlər sumağın toxunma texnikası nəticəsində yastılanır. Xovlu xalça elementləri ilə sumax elementlərinin müqayisəsinə əsasən demək olar ki, sumax xovlu xalçalardan daha sonra meydana çıxmış, onlarla bərabər inkişaf etmişdir.

Təqdim edilən sumağın bədii quruluşu ara sahə və haşiyə zolaqlarından ibarətdir. Qırmızı yerlikli ara sahənin əsas bəzəyi dörd böyük ölçülü medalyondan ibarətdir. Yuxarı hissədəki medalyonların yerliyi yaşıl, aşağı hissədə isə ağ yerliklidir.

Yaşıl yerlikli medalyonların kənarları qarmaqlı çıxıntıları olan elementlərlə əhatə olunub. Medalyonların mərkəzində səkkizbucaqlı uzunsov göl yerləşdirilib. Bu medalyonun yuxarı, aşağı, sağ və sola istiqamətlənən qarmaqlı qolları vardır. Ağac formasında işlənmiş qarmaqlı elementlər medalyonun içərisində də fərqli rənglərlə tərtib edilmişdir. Medalyonun boşluqları "S"-ə bənzər və qarmaqlı elementlərlə doldurulub. Ağ yerlikli medalyonların kənarları dilikli, içərisindəki səkkizbucaqlı elementlərin sağ və sol hissələri qarmaqlıdır.

Sumağın boşluqları qarmaqlı, "alma" və həndəsi formalı qoşabuynuz motivləri ilə doldurulub.

Sumağın ara sahəsini mavi yerlikli ana haşiyə əhatə edir. Ana haşiyə sarı, qırmızı, yaşıl, ağ, sürməyi rəngli səkkizləçəkli güllərlə bəzədilib.

Ana haşiyə xaricdən sürməyi rəngli qarmaqlı elementlər işlənmiş qırmızı yerlikli bala haşiyə ilə əhatə olunub. Qarmaqlı elementlərin kənarları mavi rəngli sular və cüzi nəzərə çarpan kvadrat şəkilli elementlərlə tamamlanır. Bala və ana haşiyənin kənarları daxildən ağ, qara rəngli "sular", bəzi hissələrdə sumağı, ağ rəngli "alamuncuq"lar yuxarı və aşağı hissələrdə isə "z" şəkilli elementlərlə tamamlanır.

Sumağın rəng tərtibatı zəngindir. Doqquz rəngdən istifadə edilmişdir.



**Sumax. Yun. Xovsuz. 1800-cü il. Quba qrupu. Azərbaycan. Şəxsi kolleksiyadan.**

*Əl ilə çəkilmiş çeşni.*
*Rəssam: Leyla Vazehi.*



| | |
|---|---|
| *Xalçanın ölçüsü:* | *80x110 sm.* |
| *Əriş:* | *Yun 5 qat.* |
| *Arğac:* | *Naxışı arğac üzlü.* |
| *Dolma:* | *Qara yun.* |
| *Üz ipi:* | *Yun.* |
| *Toxuma üsulu:* | *Sadə keçirtmə.* |
| *Sıxlığı:* | *30x40 sm.* |
| *Kənar dolama:* | *Sadə dolama 1 cüt arişə.* |
| *Rənglər:* | *8 rəng: qırmızı, sarı, yaşıl, sürməyi, kirli ağ, açıq- mavi, tünd-sürməyi, qara.* |
| *Alətlər:* | *3 və ya 4 dişli kirgit.* |

*Mənbə: İan Bennet Oriental Rugs, England, 1981*

Şirvan Azərbaycanın qədim tarixi bölgələrindən biridir. Şirvan məktəbi gözəl xalçaları ilə məşhurdur. Şirvan xalçaları mürəkkəb və çoxlu miqdarda insan, quş, məişət təsvirləri ilə xarakterizə olunur. Şirvan qrupuna "Mərəzə" , "Qobustan xalçası", "Şirvan", "Kürdəmir", "Şilyan", "Bico", "Sor-Sor" və s. kompozisiyalar daxildir. Şirvan xalçalarının zəngin və mürəkkəb naxışlı kompozisiyaları orta əsrlərdən məşhurdur. Şirvan xalçalarının bədii dəyəri haqqında VI-VIII əsr alman, ingilis tacirləri, səfirləri öz gündəliklərində qiymətli məlumatlar vermişdilər. Bu xalçalar hələ XIV-XV əsrlərdə Avropa rəssamlarının tablolarında tərənnüm edilmişdir. Niderland rəssamı Hans Memlinq (XV əsr) "Məryəm öz körpəsi ilə" əsərində "Şirvan" xalçasının təsvirini vermişdir.

Şirvan məktəbində xovlu xalçalarla yanaşı "Kilim", "Sumax", "Palaz" kimi xovsuz xalçalar da toxunur. Şirvan kilimləri çox məşhurdur.

Xovsuz xalçaların ən geniş yayılmış növü kilimdir. Kilimlər iplərlə naxışlama yolu ilə daha mürəkkəb hörmə tikməklə toxunur. Kilimin texnologiyasına əsasən naxışlar romb, üçbucaq və trapesiya formasında olur. Bitki mənşəyinə malik bütün elementlərin, heyvan, quş və insanların rəsmlərinin həndəsi təsviri verilir. Kilimin müxtəlif zonalarındakı tikişlər kompozisiyası, naxışları və rənginə görə bir-birindən fərqlənir. Kilimlərin bir özünəməxsusluğu da, hər iki üzündən istifadə olunmasıdır.

Təqdim edilən kilim düz xətlərlə rapportlara bölünmüşdür. Rapportların bəziləri böyük, bəziləri kiçik ölçülüdür. Böyük ölçülü rapportlar ağ yerlikli, bəzək elementləri "kilimgülü"lər isə sarı, qırmızı, yaşıl, mavi rənglərlə işlənmişdir. "Kilimgülü" elementləri sürməyi və qara rəngli pilləvari zolaqlarla əhatə olunub. Kilimgülü elementlərinin arasında "dilikli" motivləri yerləşdirilmişdir. Kiçik rapportların bəziləri mavi, sürməyi, qırmızı, sarı, yaşıl rənglərlə kənarları pilləvari klassik kilim elementləri ilə, bəziləri isə eyni elementlərin iki də bir hissəsi ilə bəzədilmiş və bu ziqzaqvari forma almışdır.

Rapportlar arasında ağ-qara rəngli "alamuncuq"lar yerləşdirilmişdir.



**Kilim. Yun. Xovsuz. 1870-ci il. Şirvan qrupu. Azərbaycan. Şəxsi kolleksiyadan.**

Əl ilə çəkilmiş çeşni.
Rəssam: Nərmin Əliyeva.



Mənbə: İan Bennet Oriental Rugs, England, 1981

| | |
|---|---|
| Xalçanın ölçüsü: | 80x110 sm. |
| Əriş: | Yun (təbii rəng) 5 qat. |
| Arğac: | Təbii boz rəngli yun. Bir qat ayırma. |
| Dəhnə: | Ağ yun. |
| Üz ipi: | Yun. |
| İlmə forması: | Gördəs. |
| İlmə sıxlığı: | 29x32 sm. |
| İlmə hündürlüyü: | 0,8 sm. |
| Kənar dolama: | Bir rəngli yun 8-vari dolama 4 ərişə. |
| Rənglər: | 7 rəng: qırmızı, sarı, yaşıl, sürməyi, ağ, açıq-mavi, qara. |
| Alətlər: | Çoxdişli kəvə, qayçı, ucu qarmaqlı bıçaq. |

Qədim şəhərlərdən olan Gəncə Azərbaycanın şimal qərbində yerləşir. Gəncə hələ X-XI yüzilliklərdə ipək və yun parçaların, həmçinin ipək xalçaların istehsal mərkəzi kimi tanınmışdır. Əsrlər boyu yüksək keyfiyyətli xalça istehsalı mərkəzi olan Gəncədə xüsusi xalça emalatxanaları olmuşdur. Gəncə xalçaçılıq məktəbi Gəncə ətrafında olan rayonların xalçaçılığına müsbət təsir göstərmişdir.

"Gəncə" adı ilə tanınan xalçalar quruluş və kompozisiyasına görə müxtəlif variantlarda olur. Orta sahəsi dioqonal xətt əmələ gətirən xalçalar Gəncə şəhərində istehsal olunur.

Gəncə xalçaları müxtəlif ölçülərdə olurlar. Əsas xarakterik cəhəti çox da böyük olmayan uzunsov formaya malik olmasıdır. İlmələrin sıxlığı hər dm2-də 35x35 ilmədən 40x40 ilməyə qədər yerləşir. Xovun hündürlüyü 6-8 mm-dir.

"Tirməsayağı" adlanan bu xalça Gəncədə toxunmuşdur. "Tirməsayağı" xalçalarının kompozisiyası məşhur hind parçaları olan "tirmə"nin əsasında qurulmuşdur. Xalçanın ara sahəsi diaqonal istiqamətdə bərabər rapportlara bölünərək dinamik görünüş yaratmışdır. Rapportlar narıncı, sarı, ağ, göy, sürməyi, yaşıl rənglərdə tərtib edilmişdir. Ən çox narıncı rəngdən istifadə olunmuşdur. Sarı, yaşıl, göy, sürməyi və ağ rənglər hər biri narıncı rənglə əhatə olunmuşdur. Rapportlarda altıgüşəli ulduzlar bədii şəkildə işlənərək çiçək formasına salınmışdır. Çiçəklər rapportların rəngində, kənarları boz və narıncı rəngli sularla əhatə olunmuşdur. Rapportların bəzi hissələrində həndəsi elementlər-romblar yerləşdirilmişdir. Rapportlar arasında yaşıl, qəhvəyi, sarı rəngli "siçandişi" elementləri yerləşdirilmişdir.

Xalçanın ana haşiyəsi sürməyi yerliklidir. Haşiyə altıbucaqlı həndəsi elementdən, bu elementin içərisində yerləşdirilmiş "cütbuynuz" elementlərindən və altıbucaqlılar arasında iki cərgə yerləşdirilmiş yarımçıq "kətəbə" elementlərindən ibarətdir. Bala haşiyələr ağ yerlikli olub, kiçik həndəsi elementlərlə bəzədilmişdir. Haşiyələrin arası sarı-narıncı və tünd yaşıl-qəhvəyi rənglərlə işlənmiş "siçandişi"lərlə zənginləşdirilmişdir.

Xalçada çox şux rəng həlli yaradılmışdır. Xüsusən rapportları bəzəyən elementlərin bir aşırı rənglərini dəyişməsi və eyni rənglərin ustalıqla haşiyələrdə də işlənməsi xalçaya xüsusi dəyər vermişdir.



**Xalça. Yun. Xovlu. 1900-cü il. Gəncə qrupu. Azərbaycan. Şəxsi kolleksiyadan.**



*Əl ilə çəkilmiş çeşni.*
*Rəssam: Leyla Valehi.*

| | |
|---|---|
| *Xalçanın ölçüsü:* | *80x120 sm.* |
| *Əriş:* | *Yun (təbii rəng) 6 qat.* |
| *Arğac:* | *Yun (qırmızı) 6 qat.* |
| *Dəhnə:* | *Qırmızı yun.* |
| *Üz ipi:* | *Yun.* |
| *İlmə forması:* | *Gördəst.* |
| *İlmə sıxlığı:* | *30x35 sm.* |
| *İlmə hündürlüyü:* | *10 mm.* |
| *Kənar dolama:* | *Qırmızı yun səkkizvari dolama iki cüt arişə.* |
| *Rənglər:* | *7 rəng. Qırmızı, açıq-sarı, yaşıl, sürməyi, ağ yunun təbii rəngi, mavi, qara.* |
| *Alətlər:* | *Çoxdişli həvə, qayçı, ucu qarmaqlı bıçaq.* |

*Mənbə: Ulrich Schurmann. Caucasian Rugs, Poolesville, Maryland, USA, 1990.*

Qazax-Borçalı bölgəsi ən qədim dövrlərdən həm xovlu, həm də xovsuz xalça istehsalının mərkəzlərindən biri olmuşdur. Bu bölgədə ənənəvi üsulla xalça istehsalı indiyədək davam etməkdədir. Qazax-Borçalı bölgəsi Qazaxla birgə hazırda azərbaycanlıların yığcam halda yaşadıqları Qərbi Azərbaycanın (hal-hazırda Gürcüstan) Borçalı, Qarayazı, Qaraçöp və digər ərazilərini əhatə edir.

Qazax-Borçalı xalçalarının ölçüsü əsasən böyük, kompozisiyası sadə və seyrək, elementləri isə həndəsiləşmiş formada olur. Rəng xüsusiyyətlərinə gəldikdə işlənən rənglərin miqdarının az olmasına baxmayaraq, yaşıl, sarı rənglərə daha çox təsadüf edilir.

Bu xalçaların ilmə sıxlığı 25x25-dən 35x35-dək olur. Deməli bu xalçaların bir kvadratmetrində 60.000-dən 120.000-ə qədər ilmə yerləşir. Xov hündürlüyü ən çox hallarda 6 mm-dən 12 mm-ə qədər olur.

Təqdim edilən xalçanın bədii quruluşu ara sahə və haşiyə zolaqlarından ibarətdir. Yaşıl yerlikli ara sahədə iki böyük ölçülü səkkizguşəli ulduzabənzər göl yerləşdirilib. Göllərin yuxarı, aşağı, sağ və sol hissələrindən buynuz, bəzi hissələrindən isə qarmaqlı elementlər ara sahənin boşluqlarına doğru istiqamətlənir. Medalyonların boşluqlarında "S"-ə bənzər qarmaqlı və kvadratşəkilli elementlər vardır. Ara sahənin boşluqları altıləçəkli gül və ağac motivləri ilə doldurulub.

Xalçanın ağ yerlikli ana haşiyəsində yaşıl, mavi, sarı, qırmızı, tünd- bənövşəyi rəngli pilləli elementlər təsvir edilib. Pilləli elementlərin arasındakı boşluqlarda "şamdan" motivləri vardır. Ana haşiyə hər iki tərəfdən mavi yerlikli bala haşiyələrlə əhatə olunub. Bala haşiyələr qırmızı və qara rəngli kvadratşəkilli elementlərlə bəzədilib. Daxili bala haşiyə ağ, xarici bala haşiyə isə qırmızı rəngli "alamuncuq"larla tamamlanır. Xalçada səkkiz rəngdən istifadə edilib.



**Xalça. Yun. Xovlu. 1800-cü il. Borçalı mahalı, Faxralı kəndi. Qazax-Borçalı qrupu. Azərbaycan. Şəxsi kolleksiyadan.**



Əl ilə çəkilmiş çeşni.
Rəssam: Leyla Vazehi.

| | |
|---|---|
| Xalçanın ölçüsü: | 85,5 x125 sm. |
| Əriş: | Yun (təbii rəng) 5 qat. |
| Arğac: | Qırmızı yun 4 qat dolama. |
| Dolma: | Qırmızı yun. |
| Üz ipi: | Yun. |
| İlmə forması: | Gördəst. |
| İlmə sıxlığı: | 33x50 sm. |
| İlmə hündürlüyü: | 7 mm. |
| Kənar dolama: | Qırmızı yun. |
| Rənglər: | 8 rəng: tünd-qırmızı, açıq-sarı, palıdı-sarı, yaşıl, sürməyi, kirli ağ, mavi, təbii qara yun. |
| Alətlər: | Çoxdişli həvə, qayçı, ucu qarmaqlı bıçaq. |

Mənbə: Vidadi Muradov Azərbaycan xalçaları. İrəvan qrupu.

Qədim tarixə, rəngarəng və zəngin təbiətə malik olan Qərbi Azərbaycanın İrəvan bölgəsində xalçaçılıq sənətinin yaranması və inkişafı üçün əlverişli şərait olmuşdur. Bu ərazidə yaşayan azərbaycanlıların məişətində xalça və xalça məmulatları əsas yer tutmuşdur. Bu bölgənin xalçalarında yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tutmuş, onların ifadəsi xalçalarda öz əksini tapmışdır.

İrəvan şəhəri və onun ətrafındakı mahallarda xovsuz və xovlu texnika ilə xalçalar toxunmuşdur. Bu bölgədə toxunan xalçalar istər bədii, istərsə də texnoloji xüsusiyyətlərinə görə müstəqil məktəb kimi ayrılır.

Təqdim edilən bu xalçanın bədii quruluşu ara sahə və haşiyə zolaqlarından ibarətdir.

Qırmızı yerlikli ara sahədə doqquz altıbucaqlı medalyon yerləşdirilmişdir. Medalyonların rəngi üfüqi və şaquli istiqamətdə dəyişdirilərək xüsusi ahəng yaradılmışdır. Medalyonların üzərində bir-birinin ardınca şaquli istiqamətdə düzülmüş dördbucaqlı, yuxarı, aşağı, sağ və sol hissələrdə isə stilləşmiş insan və quş fiqurlarına bənzər təsvirlər vardır. Ara sahənin yuxarı və aşağı hissələrində kiçik ölçülü səkkizbucaqlı medalyonlar işlənib. Altıbucaqlı medalyonların içərisində oxşəkilli çıxıntıları olan elementlər yerləşdirilib.

Ara sahənin boşluqları rombvari, dördləçəkli çiçək və buta motivləri ilə doldurulmuşdur.

Xalçanın ara haşiyəsi sağ və sol hissələrdə ox işarəli, yuxarı və aşağı hissələrdə isə ağacabənzər elementlərlə bəzədilib. Ana haşiyə hər iki tərəfdən dilikli elementlər işlənmiş bala haşiyələrlə əhatə olunub. Daxili bala haşiyə xaricdən ağ rəngli sular, daxildən isə tünd qəhvəyi və ağ "siçandişi"lərlə tamamlanır. Xarici bala haşiyə xaricdən tünd-qəhvəyi və sarı, daxildən isə sarı sularla əhatə olunub.

Xalçada doqquz rəngdən istifadə olunub. İsti və soyuq rənglərin yüksək peşəkarlıqla uzlaşmasından çox baxımlı bir görünüş yaradılmışdır.



Xalça. Yun. Xovlu. 1786-cı il. İrəvan qrupu.
Azərbaycan. Şəxsi kolleksiyadan.



*Əl ilə çəkilmiş çeşni.*
*Rəssam: Neva Ağaliyeva.*

| | |
|---|---|
| Xalçanın ölçüsü: | 80x100 sm. |
| Əriş: | Yun (təbii rəng) 6 qat. |
| Arğac: | Qırmızı yun. |
| Dəkmə: | Qırmızı yun. |
| Üz ipi: | Yun. |
| İlmə forması: | Gördəst. |
| İlmə sıxlığı: | 30x34 sm. |
| İlmə hündürlüyü: | 1 sm. |
| Kənar dolama: | Qırmızı yun, 8-tari 4 arişə. |
| Rənglər: | 8 rəng: Tünd-qırmızı, sarı, tünd-yaşıl, sürməyi, ağ, açıq-mavi, qara. |
| Alətlər: | Çoxdişli kəvə, qayçı, ucu qarmaqlı bıçaq, daraq. |

Mənbə: Muradov V. Azərbaycan xalçaları. Qarabağ qrupu. Bakı, 2011, s.34-35

Azərbaycanın cənubunda Kür ilə Arazın arasında yerləşən Qarabağ geniş coğrafi vilayətdir. Qarabağ əslində "Böyük bağ" deməkdir ki, bu ad da həmin bölgənin simasına tam uyğundur. Bu diyarın nəğməli çeşmələri, sərin və sıx meşələri, gül-çiçəyə qərq olmuş çəmənlikləri, gur çayları, min bir dərdin dərmanı olan mineral bulaqları, barlı-bərəkətli tarlaları dillər əzbəri olmuşdur. Coğrafi cəhətdən Cənubi Qarabağ (İran) Azərbaycanın sərhədlərinədək uzanıb gedir.

Qarabağda incəsənətin müxtəlif sahələrində özünə məxsus müstəqil yaradıcılıq məktəbləri meydana gəlmişdir. Orta əsrlərdə Qarabağ əhalisinin yaradıcılığının yüksək səviyyəsinə memarlıq abidələri, daş plastikası nümunələri, poetik irs və musiqi, o cümlədən misilsiz xalça nümunələri sübutdur.

Qarabağ xalçalarının bənzərsiz gözəlliyi müxtəlif dövrlərin tarixi məxəzlərində dəfələrlə qeyd edilmişdir. Bizə gəlib çatan xalça nümunələri indi dünyanın neçə-neçə məşhur muzeyinin və şəxsi kolleksiyaların nadir incilərindən sayılır.

Təqdim edilən xalça Qarabağın çox tanınmış xalçaları sırasına daxildir. Qarabağın qocaman toxucuları bu xalçanı "Bərdə" adlandırır. Əslində bu xalçanın əsas toxunma mərkəzi Bərdənin Çələbilər kəndi olmuşdur. Sonralar bu kompozisiya Dağlıq Qarabağın və Aranın müxtəlif xalçaçılıq mərkəzlərində, o cümlədən XIX əsrdən başlayaraq Azərbaycanın Qazax bölgəsində də toxunmuşdur. "Çələbi" xalçasının adı ilk toxunduğu kəndin adı ilə bağlıdır.

Qırmızı yerlikli bu xalçanın ara sahəsinin əsas bəzəyi iki böyük ölçülü göldən ibarətdir. Gölün kənarlarında ara sahənin boşluqlarına doğru qollar şaxələnir. Bu qollar alovlanan palmettaları xatırladır və xalçanın kompozisiyasını daha baxımlı edir. Gölün mərkəzində "dörd ünsür" (od, torpaq, hava, su) mənasını bildirən böyük ölçülü element təsvir edilib.

Xalçanın ağ yerlikli ana haşiyəsində qırmızı, sürməyi, yaşıl, boz rəngli səkkizguşəli ulduz motivləri işlənmişdir. Ulduzlar bir-birinə qırmızı rəngli xətlərlə birləşdirilib. Bu xətlər ümumilikdə səkkizbucaqlı medalyon forması almışdır. Hər bir medalyonun içərisində kiçik ölçülü qoşa pilləli element vardır. Ana haşiyə daxildən mavi və boz, xaricdən isə boz və yaşıl rəngli dilikli elementlər işlənmiş bala haşiyələrlə əhatə olunub. Daxili bala haşiyə xaricdən qırmızı, boz, "alaməncuq"lar daxildən boz rəngli su ilə, xarici bala haşiyə isə hər iki tərəfdən qırmızı və boz rəngli "alaməncuq"larla tamamlanır.

Xalçada səkkiz rəngdən istifadə edilib. Rəng tərtibatı yüksək peşəkarlıqla həll edilmişdir.



**Xalça. "Çələbi". Yun. Xovlu. 1850-ci il. Qarabağ qrupu. Azərbaycan. Şəxsi kolleksiyadan.**

Əl ilə çəkilmiş çeşni.
Rəssam: Nərmin Əliyeva.



| | |
|---|---|
| Xalçanın ölçüsü: | 60x80 sm. |
| Əriş: | Yun 5 qat. |
| Arğac: | Yun. |
| Dəhnə: | Qara yun. |
| Üz ipi: | Yun. |
| İlmə forması: | Gördəst və mürəkkəb dolama. |
| İlmə sıxlığı: | 40x50 sm. |
| İlmə hündürlüyü: | 5 mm, duzluğun arxası palaz xovsuz. |
| Kənar dolama: | Rəngli yun iplər. |
| Rənglər: | 7 rəng: qırmızı, sarı, yaşıl, sürməyi, ağ, mavi, qara. |
| Alətlər: | Çoxdişli kəvə, qayçı, ucu qarmaqlı bıçaq, kirgit. |

Mənbə: İan Bennet Oriental Rugs, England, 1981

Naxçıvanın xalçaçılıq məntəqələrində toxunan müxtəlif naxışlı xalçalar birlikdə "Naxçıvan xalçası" adını almışdır. Naxçıvan məktəbində eyni zamanda xalça məmulatları da toxunur. "Naxçıvan xalçaları" adını daşıyan xalça və xalılar uzunsov formada daha çox istehsal olunurdu. Bu xalçaların ölçüsü əsas etibarilə böyük olur. Nadir hallarda daha hamar xalçalara da rast gəlmək olar. Ölçüləri: 100X150 sm-dən 160X260 sm arasında dəyişir. İlmələrin sıxlığı bir kvadrat desimetrdə təxminən 35X35 ilmə (düyün) yerləşir. Xovun hündürlüyü 6–8 mm-dir. "Naxçıvan xalçaları" hələ qədim zamanlardan Azərbaycan xalçaçılıq sənətinin ən yaxşı nümunələri hesab edilir.

Azərbaycanda xovlu və xovsuz xalçalarla yanaşı hələ qədim zamanlardan etibarən məişətdə istifadə etmək üçün müxtəlif xalça məmulatları da istehsal olunurdu. Bir çox hallarda xalça məmulatları əvvəlcə müxtəlif növ xovsuz xalça texnologiyasının köməyi ilə, daha sonra inkişaf etdikcə xovlu xalça texnologiyasının köməyi ilə istehsal olunurdu. Ümumiyyətlə, xalçaçılıq sənətinin inkişafı baxımından xalça məmulatlarının hər biri sadədən mürəkkəbə doğru ayrı-ayrı inkişaf mərhələsini keçmiş və xovlu xalçalara nisbətən daha əvvəlki dövrlərə təsadüf edir.

Xalça məmulatlarının istehsalında yun, pambıq, ipək saplarla yanaşı qamış çubuğundan, eləcə də quru ağac budaqlarından da istifadə edilmişdir.

Mərfəş, xurcun, heybə, taxtüstü, yəhərüstü, çul, örkən, çömçədan, sicim, yun corablar, pərdələr və s. kimi xalça məmulatlarının bir çoxu hal-hazırda da bəzi şəhər və kəndlərimizdə istehsal olunur. Belə məişət əşyalarına "Duz torbası"nı da daxil etmək olar. El arasında Duz torbası, Duzluq, Duzqabı — duz saxlamaq üçün istifadə edilən torbaya deyilir. Naxçıvan zonasında əsasən "Duz torbası" kimi adlandırılır. Duz torbasından Azərbaycanda duzu müəyyən müddət saxlamaq və həmçinin daşımaq üçün istifadə edilirdi. Xüsusi naxış və ornamentlərlə bəzədilmiş duz torbası uzun, dar boğazlı olmaqla müxtəlif rəngli yun, pambıq və həmçinin ipək ipliklərdən Zili-Qayıq toxunuşla toxunur.

Naxçıvanda toxunmuş bu duz torbası yüksək zövqlə işlənmişdir. Mərkəz hissə sürməyi və qırmızı rənglərlə üç bərabər hissəyə bölünmüşdür. Sürməyi yerliklər ağ, narıncı, yaşıl rəngli "qoşa quş" təsvirləri ilə bəzədilmişdir. Quşların başı üstündə "qarmaq", ayaqları arasında və bellərində kiçik həndəsi "gözqaytarıcı" elementləri vardır. Əsas bəzək elementi stilizə olunmuş quş təsviridir. Qırmızı yerlikli hissədə iki stilizə olunmuş "tovuzquşu", iki kiçik ölçülü quş və"insan" təsviri verilmişdir. Əsas elementlərlə yanaşı qırmızı yerlikli sahə məişət əşyası "aftafa" və "sırğa" ilə bəzədilmişdir.

Ana haşiyə içərisi səkkizguşəli ulduzlarla bəzədilmiş altıbucaqlı həndəsi elementlərdən və onların arasında iki cərgə yerləşdirilmiş oxvari elementlərdən ibarətdir. Haşiyənin yerliyi qırmızı, bəzək elementləri isə sarı, mavi, ağ, yaşıl, sürməyi, qırmızı rənglərlə işlənib. Bala haşiyələr qırmızı, göy, yaşıl rəngin vəhdəti ilə yaradılmış sadə rombvari zolaqdan ibarətdir.



Xalça. "Duzluq torba". Yun. Xovlu və xovsuz, qarışıq texnika. XVII əsr. Naxçıvan qrupu. Azərbaycan. Şəxsi kolleksiyadan.



*Əl ilə çəkilmiş çeşni.*
*Rəssam: Leyla Valehi.*

| | |
|---|---|
| Xalçanın ölçüsü: | 80x115 sm. |
| Əriş: | Pambıq 15 qat. |
| Arğac: | 15 qat. Alt və 8 qat üst arğac, pambıq 40/8 |
| Dəhnə: | Ağ pambıq. |
| Üz ipi: | Yun. |
| İlmə forması: | Gördəs. |
| İlmə sıxlığı: | 45x45 sm. |
| İlmə hündürlüyü: | 5 mm. |
| Kənar dolama: | Yun qara. |
| Rənglər: | 8 rəng: qırmızı, qızılı-sarı, yaşıl, sürməyi, ağ, mavi, qara, çəhrayı. |
| Alətlər: | Çoxdişli kəvə, qarmaqlı bıçaq, qayçı, daraq. |

Mənbə: Carpet, Textile and İslamic Art. Hali. London

Təbriz xalçaçılıq məktəbi Azərbaycanın ən qədim və məşhur xalçaçılıq məktəbidir. Bu ərazidə yaşamış türk dilli tayfalar hələ qədimdən xalçaçılığın yaranması və inkişafında mühüm rol oynamışlar. Orta əsrlərdə Şərqin ən mühüm ticarət mərkəzlərindən və zəngin şəhərlərindən olan Təbrizin Avropa ilə ticarət əlaqələri xalçaçılıq sənətinin sürətli inkişafına səbəb olmuşdur.

Öz kompozisiya tələbatına, süjetlərin təsvirinə, koloritinə və texnologiyasına görə Cənubi Azərbaycan xalçalarına XVI əsrdə Təbriz məktəbinin yüksək tərəqqisi təsir etmişdir.

Təqdim olunan xalça "Ağaclı" adlanır. Bu xalçalar öz adlarını istehsal olunduqları yerin adına görə deyil, kompozisiyasına görə adlanırlar. "Ağaclı" kimi tanınan xalçaların ara sahəsi, əsas etibarilə, bir və ya bir neçə ağac və kollardan ibarətdir, nadir hallarda isə ağac qruplarından ibarət olur. Ağacların müxtəlif növləri olur. Qədim dövrlərdə əfsanəvi hadisələr, məhəbbət səhnələri, mifoloji, bəzən isə dini fantastik süjetlər bu kompozisiyaların əsas süjetini təşkil edirdi.

Xalçanın ara sahəsi ağ rənglidir. Əsas element olan damla şəkilli "ağac" xalçanın ara sahəsi boyu yerləşdirilmişdir. Ağacın yerliyi göy rənglidir. Ağacın mərkəzində iki sıra buta elementi təsvir edilib. Butalar zoğalı, mavi, yaşıl rəngli, "Küsülü buta" isə çəhrayı rənglidir. Ağacın ətrafı qırmızı rəngli diliklərlə tamamlanmışdır. Bu element ağaca həm də "alov" forması vermişdir. Ara sahənin boşluqları nəbati elementlərlə, əfsanəvi "simurq" quşları ilə doldurulmuşdur. Nəbati elementlər çəhrayı, sarı, yaşıl, sürməyi, mavi rənglərlə, quşlar isə sarı, qırmızı, mavi və sürməyi rənglə işlənmişdir. Ağacın gövdəsi mavi rəngli, kənarları isə zoğalıdır.

Ana haşiyə tünd-bənövşəyi yerliklidir, sarı, çəhrayı, yaşıl, ağ, mavi rəngli nəbati elementlər isə "islimi" naxışlarıdır. Ana haşiyəni qırmızı yerlikli, ağ, mavi, sarı, yaşıl rəngli dalğavari xətlər əhatə edir.



**Xalça. Yun. Xovlu. 2010-cu il. Təbriz qrupu. Azərbaycan. "Azər-İlmə" istehsalı.**

## Şəkillərin siyahısı


Şəkil 1. Xalçaçılıq Tədris Mərkəzi
Şəkil 2-3. Xalçaçılıq Tədris Mərkəzi: ümumi görünüş
Şəkil 4. Tədris prosesi
Şəkil 5. Gənc xalçaçılar
Şəkil 6. Palaz. Qazax-Borçalı qrupu
Şəkil 6a. Palaz. Fraqment. Qazax-Borçalı qrupu
Şəkil 7. Palaz. Bakı qrupu
Şəkil 7a. Palaz. Fraqment. Bakı qrupu
Şəkil 8. Kilim. Bakı qrupu
Şəkil 8a. Kilim. Fraqment. Bakı qrupu
Şəkil 9. Kilim. İrəvan qrupu
Şəkil 9a. Kilim. Fraqment. İrəvan qrupu
Şəkil 10. Sumax. Quba qrupu
Şəkil 10a. Sumax. Fraqment. Quba qrupu
Şəkil 11. Sumax. Quba qrupu
Şəkil 11a. Sumax. Fraqment. Quba qrupu
Şəkil 12. Zili. Bakı qrupu
Şəkil 12a. Zili. Fraqment. Bakı qrupu
Şəkil 13. Zili. Qazax-Borçalı qrupu
Şəkil 13a. Zili. Fraqment. Qazax-Borçalı qrupu
Şəkil 14. Şəddə. Qarabağ qrupu
Şəkil 14a. Şəddə. Fraqment. Qarabağ qrupu
Şəkil 15. Şəddə. Naxçıvan qrupu
Şəkil 15a. Şəddə. Fraqment. Naxçıvan qrupu
Şəkil 16. Vərni. Qarabağ qrupu
Şəkil 16a. Vərni. Fraqment. Qarabağ qrupu
Şəkil 17. Vərni. Qarabağ qrupu
Şəkil 17a. Vərni. Fraqment. Qarabağ qrupu
Şəkil 18. Cecim. Naxçıvan qrupu
Şəkil 18a. Cecim. Fraqment. Naxçıvan qrupu
Şəkil 19. Cecim. Naxçıvan qrupu
Şəkil 19a. Cecim. Fraqment. Naxçıvan qrupu
Şəkil 20. Ladı. Qarabağ qrupu
Şəkil 20a. Ladı. Fraqment. Qarabağ qrupu
Şəkil 21. Ladı. Qarabağ qrupu
Şəkil 21a. Ladı. Fraqment. Qarabağ qrupu
Şəkil 22. Xalça. «Atlı-itli». Qarabağ qrupu
Şəkil 23. Xalça. «Ləmbəli». İrəvan qrupu
Şəkil 24. Süjetli xalça. Təbriz qrupu
Şəkil 25. Xalça. «Həyat ağacı». İrəvan qrupu
Şəkil 26. Xalça. «Tirmə buta». Naxçıvan qrupu
Şəkil 27. Azərbaycan xalça məktəblərinə dair nümunələrdən ibarət kompozisiya. "Azər-İlmə" istehsalı. 2010
Şəkil 28. Bakı qrupu xalçalarından fraqmentlər
Şəkil 29. Bakı qrupu xalçalarından fraqmentlər
Şəkil 30. Bakı qrupu xalçalarından fraqmentlər
Şəkil 31. Məfrəş üzü. Fraqment. Bakı qrupu
Şəkil 32. Quba qrupu xalçalarından fraqmentlər
Şəkil 33. Quba qrupu xalçalarından fraqmentlər
Şəkil 34. Xalça fraqmenti. «Pirəbədil». Quba qrupu
Şəkil 35. Quba qrupu xalçalarından fraqmentlər
Şəkil 36. Şirvan qrupu xalçalarından fraqmentlər

Şəkil 37. Şirvan qrupu xalçalarından fraqmentlər
Şəkil 38. Şirvan qrupu xalçalarından fraqmentlər
Şəkil 39. Xalça fraqmenti. Şirvan qrupu
Şəkil 40. Gəncə qrupu xalçalarından fraqmentlər
Şəkil 41. Gəncə qrupu xalçalarından fraqmentlər
Şəkil 42. Xalça fraqmenti. Gəncə qrupu
Şəkil 43. Gəncə qrupu xalçalarından fraqmentlər
Şəkil 44. Qazax-Borçalı qrupu xalçalarından fraqmentlər
Şəkil 45. Qazax-Borçalı qrupu xalçalarından fraqmentlər
Şəkil 46. İrəvan qrupu xalçalarından fraqmentlər
Şəkil 47. İrəvan qrupu xalçalarından fraqmentlər
Şəkil 49. İrəvan qrupu xalçalarından fraqmentlər
Şəkil 48. Xalça fraqmenti. İrəvan qrupu
Şəkil 50. Qarabağ qrupu xalçalarından fraqmentlər
Şəkil 51. Qarabağ qrupu xalçalarından fraqmentlər
Şəkil 52. Zili fraqmenti. Qarabağ qrupu
Şəkil 53. Qarabağ qrupu xalçalarından fraqmentlər
Şəkil 54. Naxçıvan qrupu xalçalarından fraqmentlər
Şəkil 55. Naxçıvan qrupu xalçalarından fraqmentlər
Şəkil 56. Duz torbası. Naxçıvan qrupu
Şəkil 57. Duz torbası. Naxçıvan qrupu
Şəkil 58. Naxçıvan qrupu xalçalarından fraqmentlər
Şəkil 59. Təbriz qrupu xalçalarından fraqmentlər
Şəkil 60. Təbriz qrupu xalçalarından fraqmentlər
Şəkil 61. Təbriz qrupu xalçalarından fraqmentlər
Şəkil 62. Xalça. Təbriz qrupu
Şəkil 63. Təbriz qrupu xalçalarından fraqmentlər
Şəkil 64. Təbriz qrupu xalçalarından fraqmentlər
Şəkil 65. Təbriz qrupu xalçalarından fraqmentlər
Şəkil 66. Dəzgah
Şəkil 67. Alt ox
Şəkil 68. Üst ox
Şəkil 69. Küçü
Şəkil 70. Hazır dəzgah
Şəkil 71. Taxta həvə
Şəkil 72. Dəmir həvə
Şəkil 73. Qayçı
Şəkil 74. Xalçanın xovunu qırxmaq üçün qayçılar
Şəkil 75. Kirkit
Şəkil 76. Taxta kirkit
Şəkil 77. Qarmaqlı sökmə bıçağı
Şəkil 78. İlmə vurmaq üçün qarmaqlı bıçaq
Şəkil 79. Alətlər və ip yumaqları
Şəkil 80. Qoyunun qırxılması
Şəkil 81. Yun
Şəkil 82. Barama
Şəkil 83. İpək iplər
Şəkil 84. Pambıq kolu
Şəkil 85. Pambıq qozası
Şəkil 86. Tarlada pambıq
Şəkil 87. Yunun yuyulması
Şəkil 88. Yunun daranması

Şəkil 89. Yunun qurudulması
Şəkil 90. Yundan ipin əyrilməsi
Şəkil 91. Əlçim
Şəkil 92. Yun ipin kələfi
Şəkil 93. İplərin boyanması
Şəkil 94. İplərin sıxılması
Şəkil 95. Təbii şəkildə ipin yuyulması, boyanması və boyanmış ipin yenidən yuyulması
Şəkil 96. İpin yumaqlanması
Şəkil 97. Hazır rəngli iplər
Şəkil 98. Boyanmış yun iplər
Şəkil 99. Yumaqlar dəzgahda
Şəkil 100. Boyanmış ipək iplər
Şəkil 101. Boyanmış iplərin qurudulma prosesi
Şəkil 102. Gənc xalçaçı qız
Şəkil 103. Ərişin dəhnə ağacına möhkəm düyünlənməsi
Şəkil 104. Ərişin üst oxa tərəf ötürülməsi
Şəkil 105. Ərişin alt oxun arxasından qabağa tərəf verilməsi
Şəkil 106. Alt oxun arxasından gətirilmiş ərişin dəhnə ağacına keçirilməsi
Şəkil 107. Ərişlərin yan-yana yığılması və tarımlaşdırılması və eyni qaydada davam etdirilməsi
Şəkil 108. Ərişçəkmə
Şəkil 109. Ərişçəkmə
Şəkil 110. Küçü ağacının bir başından o biri başına möhkəm eşilmiş ipin bağlanması
Şəkil 111. Küçü ipinin düyünlənməsi
Şəkil 112. Sol tərəfdən birinci ərişin tutulması
Şəkil 113. Küçü sapının onun sağından keçirilib altından-sol tərəfindən alınması və düyünlənməsi
Şəkil 114. Paralelləşdirmə və çarpazlaşdırılma
Şəkil 115. Küçüüstü ağacın ərişlər arasindan görünüşü
Şəkil 116. Küçügötürmə
Şəkil 117. Möhkəm eşilmiş və möhkəm dartılmış ipin üfüqi vəziyyətdə yanlıqlara bağlanması
Şəkil 118. Bir çin sünbül keçirilməsi
Şəkil 119. Sünbülün ardıcıllıqla vurulması
Şəkil 120. Sünbülün həvə ilə döyülməsi və tarazlaşdırılması
Şəkil 121. Sünbülün hazır forması
Şəkil 122. Qırmızı ərqacın ərişlərin arasından soldan sağa keçirilməsi
Şəkil 123. Sünbülə tərəf çəkilmə
Şəkil 124. Həvə ilə otuzdurulma
Şəkil 125. Dəhnənin birinci sadə keçirilməsi
Şəkil 126. Küçüüstü ağacın qaldırılması, dəhnə ipinin sag əl ilə sol ələ verilməsi
Şəkil 127. Sol əl ilə dəhnə dartılması
Şəkil 128. Sag əldə həvə, sol əldə isə dəhnə ipinin tutulması
Şəkil 129. Palaz texnologiyası ilə döyülmüş dəhnə forması
Şəkil 130. Dəhnə üstü sünbülün ipinin keçirilməsi
Şəkil 131. Dəhnə üstü sünbülün həvə ilə otuzdurulması
Şəkil 132. Toxunuş prosesi üçün hazır dəhnə
Şəkil 133. Qarmaqlı bıcaq ilə ilmə vurma prosesinin başlanması. Bıcaqla üst ərişin götürülməsi

Şəkil 134. İpin ucunun sol tərəfdən sağa verilməsi
Şəkil 135. İlmə salmaq üçün ucunun hazır saxlanması
Şəkil 136. Bıcağın ipin iki ucu arasına keçirilməsi
Şəkil 137. İpin iki ərişin arasından bıcağın qarmağına keçirilməsi
Şəkil 138. İlmə düyününün iki əriş arasından çıxarılması
Şəkil 139. İlmənin hazır dəhnə üstünə otuzdurulması
Şəkil 140. Hazır ilmə
Şəkil 141. Hazır ilmənin qarmaqlı bıcaq ilə kəsilməsi
Şəkil 142. Bir neçə vurulmuş ilmənin görünüşü
Şəkil 143. Hazır ilmə (bir çin) düzümü
Şəkil 144. Alt arğacın ərişlərin arasından sağdan-sola ötürülməsi
Şəkil 145. Alt arğacın götürülməsi
Şəkil 146. Alt arğacın tarım vəziyyətə gətirilməsi
Şəkil 147. Alt arğacın həvə ilə döyülməsi
Şəkil 148. Alt arğacın hazır ilmə üstünə otuzdurulması
Şəkil 149. Alt arğacın hazır görüntüsü
Şəkil 150. Üst arğacın sol əldən sağ ələ ərişlər arasından ötürülməsi
Şəkil 151. Üst arğacın həvə ilə tökə döyülməsi
Şəkil 152. Üst arğacın döyülməsi
Şəkil 153. Alt və üst arğacın döyülmüş hazır vəziyyəti
Şəkil 154. İlmələrin tarazlaşdırılması
Şəkil 155. Bir cüt ərişə qıraq ipinin dolanması
Şəkil 156. Qıraq ipinin bir cüt ərişə bir neçə dəfə dolanması
Şəkil 157. Qıraq ipinin düyünlənməsi
Şəkil 158. Xovun qayçılanma prosesinin başlanması
Şəkil 159. Sol əl ilə qayçının sıxılması
Şəkil 160. Sağ və sol əl ilə qayçının işlənməsi
Şəkil 161. Hazır qayçılanmış çinin görüntüsü
Şəkil 162. Sıxlığına görə ərişin görüntüsü
Şəkil 163. Sıxlıq və yatımına görə xalçanın görüntüsü
Şəkil 164. Xalça. Qarabağ qrupu
Şəkil 165. Xalçanın quruluşu
Şəkil 166. Çeşnə dair müzakirələr
Şəkil 167. Müxtəlif çeşnilər
Şəkil 168. Xalça. "Ləçək-turunc". Təbriz qrupu
Şəkil 169. Xalça. "Bağçada güllər". Naxçıvan qrupu
Şəkil 170. Xalça. İrəvan qrupu
Şəkil 171. Xalça. İrəvan qrupu
Şəkil 172. Xalçanın «kəsilmə» prosesi
Şəkil 173. «Kəsilmiş» xalçanın dolabda çırpılması
Şəkil 174. Xalçanın xüsusi şəraitdə və çayda yuyulması
Şəkil 175. Xalçanın sıxılması
Şəkil 176. Xalçanın qurudulması
Şəkil 177. Xovun tarazlaşdırılması
Şəkil 178. Xalçanın dartılması
Şəkil 179. Xalçanın ütülənməsi
Şəkil 180. Xalça saçağına «dövrənin» vurulması
Şəkil 181. Xalça saçağının daranması
Şəkil 182. Xalça saçağının tarazlaşdırılması
Şəkil 183. Xalçanın preslənməsi və hazır vəziyyətə gətirilməsi
Şəkil 184. «Azər-İlmə»nin «Sehrli ilmələr» qalereyasından
Şəkil 185. Xalça. «Çələbi». Qarabag qrupu

Vidadi Muradov

# Azərbaycan xalça sənəti

tarixi, məktəbləri, texnologiyası

(illüstrasiyalı nəşr)